

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Tarix yazan lider!



5

SƏS

№ 063 (6746)

13 aprel 2023-cü il.
Qiymәti 60 qәpik

# Vasitəçi tərəfsiz və ədalətli olmalıdır



2

*Prezident İlham Əliyev aprelin 12-də ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmanini qəbul edərkən bildirib ki, Azərbaycan ATƏT ilə əməkdaşlığa praktiki müstəvidə baxır.Dövlətimizin başçısı söhbət əsnasında transsərhəd çayları üzrə birgə əməkdaşlıq, humanitar minatəmizləmə, yaşıl limanlar, Orta Dəhliz kimi konsepsiyalar üzrə praktiki və praqmatik əməkdaşlıq layihələrinin icra olunması imkanlarına baxılmasının mümkünlüyünü diqqətə çatdırıb.*

# Ermənistan üçün GÖZLƏNİLƏN FƏLAKƏT!



4

## "Ermənistanın təxribatları davam edərsə, cavabımız onlar üçün çox ağır olacaq"



2

## İdarəetmədə Heydər Əliyev zəkası



8

## "Bu dəfəki yumruğumuz ölümcül olacaq"



7

## Ronaldo baş məşqçini işdən qovdurur



16

## Şəhərlə kənd arasındakı sosial bərabərsizlik aradan qaldırılır



13

# Vasitəçi tərəfsiz və ədalətli olmalıdır

## PREZİDENT İLHAM ƏLİYEV: “Azərbaycan ATƏT ilə əməkdaşlığa praktiki müstəvidə baxır”



***Prezident İlham Əliyev aprelin 12-də ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmanini qəbul edərkən bildirib ki, Azərbaycan ATƏT ilə əməkdaşlığa praktiki müstəvidə baxır.Dövlətimizin başçısı söhbət əsnasında transsərhəd çayları üzrə birgə əməkdaşlıq, humanitar minatəmizləmə, yaşıl limanlar, Orta Dəhliz kimi konsepsiyalar üzrə praktiki və praqmatik əməkdaşlıq layihələrinin icra olunması imkanlarına baxılmasının mümkünlüyünü diqqətə çatdırıb. Prezident İlham Əliyev onu da vurğulayıb ki, sərhəddə baş vermiş insident Ermənistanın məqsədyönlü təxribatıdır: «Azərbaycan tərəfindən Qarabağ iqtisadi rayonu üzrə xüsusi nümayəndə təyin olunub və erməni sakinlər Bakıya həm reinteqrasiya, həm də müxtəlif infrastruktur layihələrinin müzakirəsi məqsədilə dəvət edilib".***

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında ikitərəfli əsasda sülh müqaviləsi üzrə və münasibətlərin normallaşdırılması istiqamətində danışıqların aparıldığını diqqətə çatdırıb. Dünən Ermənistan-Azərbaycan sərhədində baş vermiş insidentə toxunan Azərbaycan Prezidenti bunun Ermənistan tərəfindən məqsədyönlü şəkildə törədilmiş təxribat olduğunu vurğulayıb.

### ATƏT-in 30 illlik fəaliyyətsizliyi

Minsk qrupunun 30 illik fəaliyyətsizliyinin nətcəsi göz önündə oldu. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk qrupunun üzərinə düşən vəzifəni yerinə yetirə bilmədi, Azərbaycan bunu hərbi-siyasi vasitələrlə həll etdi. Bəli, Azərbaycan 30 ilə yaxın davam edən münaqişəni həll etdi, buna güc yolu və siyasi vasitələrlə nail oldu. Beləliklə, Azərbaycan bu məsələni özü həll etdi.

### BİZƏ ATƏT-İN MİNSK QRUPU KİMİ VASİTƏÇİ LAZIM DEYİL

”Mən dəfələrlə onun hərəkətlərinə və söylədiklərinə istinad etmişəm. Bu, tamamilə qəbuledilməz idi. Onun Azərbaycan dövlətinə və xalqına qarşı təxribatçı və təhqiredici əməllərinə, bəyanatlarına cavab verilməli idi və biz onu ciddi şəkildə cəzalandırdıq»,-deyən dövlət başçısı onu da deyib ki, Paşinyan öz məğlubiyyətini etiraf etməyə, atəşkəs üçün yalvarmağa məcbur oldu: «Əslində o, bunu 44 günlük müharibə əsnasında hər gün edirdi və gündə bir neçə dəfə dünya liderlərinə zəng edirdi. Onun zəng etmədiyi avropalı lider tapmaq çətin olar. O, atəşkəsin təmin edilməsini xahiş edirdi. Lakin o, mənim şərtlərimə əməl etmək istəmirdi. Mən onları rədd etdim və dedim ki, mənim yeganə şərtim var – torpaqlarımızdan çıx! Əks təqdirdə, Azərbaycanın dəmir yumruğunu görəcəksən”.

Prezident İlham Əliyev İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bildirmişdir ki, ATƏT-in Minsk Qruppu fəaliyyətə başladığı andan hər zaman Azərbaycanın əleyhinə olub: “Yəni onların əvvəldən fəaliyyəti, mövqeyi bu gün də daxil olmaqla hər zaman bizim əleyhimizə olub. Hesab edirəm ki, gələcəkdə də belə olacaq, heç bir dəyişiklik edilməyəcək. Buna görə Ermənistanla bizim aramızda təxribatlar, gərginliklər, anlaşmazlıqlar, ümumiyyətlə, hər hansı bir problemlər baş verdikdə Azərbaycan bu məsələləri özü yoluna qoyur, özü də həll edir. Bizə ATƏT-in Minsk qrupu kimi vasitəçi lazım deyil. Çünki onların mövqeyi ortadadır».

### METYU BRAYZA: “Aİ ATƏT-İN MİNSK QRUPUNUN DE-FAKTO “ÖLÜMÜ”NDƏN SONRA YARANMIŞ BOŞLUĞU DOLDURMAĞA ÇALIŞIR”

“İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev açıq şəkildə göstərdi ki, Ermənistanla ölkəniz arasında münasibətlərin normallaşmasına imkan verəcək sülh müqaviləsinin bağlanmasına tərəfdardır”.Bunu ABŞ-ın Atlantik Şurasının böyük elmi işçisi, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri, beynəlxalq ekspert Metyu Brayza bildirib.Onun sözlərinə görə, Ermənistanın baş naziri Nikol Paşinyan da bu istiqamətdə hərəkət etmək istəsə də, bir vaxtlar işğal altında olan Azərbaycan ərazilərini geri qaytarmaq kimi əlçatmaz arzuyla yaşayan müxalifət səbəbindən bunu edə bilmədi: “Onların bu arzusu da öldü”, – o əlavə edib.O həmçinin bildirib ki, Avropa Şurasının Prezidenti Şarl Mişelin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanla üçtərəfli görüşünün nəticələrinə əsasən səsləndirdiyi bəyanat həqiqətən yaxşı əlamətdir və ölkələrin sülh müqaviləsinin imzalanmasına yaxınlaşdıqlarından xəbər verir. Belə ki, bəyanatda xarici işlər nazirlərinə bütün zəruri məsələləri həll edəcək sülh müqaviləsinin hazırlanması üzərində işləməyin tapşırıldığı bildirilir.Brayza bəyanatda ATƏT-in Minsk qrupunun bir dəfə də olsun xatırlanmadığını, Brüssel görüşünün Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə yeni danışıqlar formatının qurulması üçün zəmin yaratdığını vurğulayıb: “Bəyanatda ATƏT-in Minsk qrupunun xatırlanmaması Aİ-nin ATƏT-in Minsk qrupunun de-fakto “ölümü”ndən sonra yaranmış boşluğu doldurmağa çalışdığından xəbər verir”.

Ekspert aprelin sonuna planlaşdırılan görüşdə Azərbaycan və Ermənistanın sərhədlərin delimitasiyası ilə bağlı razılığa gələ biləcəyinə ümidvar olduğunu bildirib. “Demarkasiya ilə bağlı danışıqlar vaxt tələb edəcək. Bu razılaşma uğurlu olacaq, sadəcə onun əldə olunması üçün nə qədər zaman tələb olunacağını bilmirəm”, – o fikrini tamamlayıb.

### “MİNSK QRUPU 28 İL FƏALİYYƏT GÖSTƏRİB. NƏTİCƏ GÖZ QABAĞINDADIR - SIFIR”

Azərbaycan Prezidenti dəfələrlə çıxışlarında, müsahibələrində bildirib ki, münaqişənin həlli üçün ATƏT-in Minsk Qrupuna verilən mandat de-yure qüvvədə qalsa da, de-fakto qüvvədən düşmüş sayıla bilər: “Minsk Qrupu 28 il fəaliyyət göstərib və “nəticəsi göz qabağındadır – sıfır”Göründüyü kimi, artıq Minsk qrupu və onun həmsədrlərinin addımları məşhur el məsəlimizdə deyildiyi kimi, «öz cəzandır, çək!». Bizim artıq nə danışıqlara, nə Minsk qrupuna, nə də həmsədrlərə ehtiyacımız var. Bizim öz tənzimləyicimiz – «dəmir yumruğumuz» var. Necə ki, 44 gündə də bu yumruq öz tarixi missiyasını layiqincə yerinə yetirdi Ədalət Zəfər çaldı. Ermənistan da, onun yanında duranlar da layiqli cavablarını aldılar. Prezident İlham Əliyevin sözləri ilə desək: «Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur edildi. Onlar bunu heç vaxt könüllü imzalamazdılar. Biz onları məcbur etdik, Minsk qrupu yox!...Bu, reallıqdır”

Bütün bunlar isə Azərbaycan Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu siyasətin məntiqi nəticəsidir. Azərbaycan bu gün beynəlxalq aləmdə söz sahibidir. Qərəzli beynəlxalq təşkilatların böhtan və qarayaxmalarına baxmayaraq, Azərbaycan tutduğu haqq-ədalət yolunda inamla irəliləyəcək. Azərbaycan Prezidentinin dediyi kimi: «Bizə qarşı hansısa təxribat törədiləcəyi, revanşist addımlar atılacağı təqdirdə Ermənistan üçün daha pis olacaq. Çünki dəmir yumruq yerindədir!»

**RƏFİQƏ KAMALQIZI**

## Rəsmi xronika

**Prezident İlham Əliyev Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında Sərəncam imzlayıb.**

* * *

**Prezident İlham Əliyev ”Yengicə su anbarının tikintisi haqqında” Sərəncam imzalayıb.**

## “Ermənistanın təxribatları davam edərsə, cavabımız onlar üçün çox ağır olacaq”




***Dünən baş verən hadisə planlaşdırılmış təxribat idi. Həmin ərazidə Ermənistan hərbçilərinin olması onu göstərir ki, düşünülmüş plan var idi. Bu sözləri Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov aprelin 12-də Şimali Makedoniyanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmani ilə keçirdiyi birgə mətbuat konfransında deyib.***

Ceyhun Bayramov qeyd edib ki, laçınlıların 2023-cü il ərzində Laçına qayıtmaları planlaşdırılır. Mina təhlükəsi və bu kimi addımlar onların qayıtmasını önləməyə yönəlib. Ermənistanın təxribatları davam edərsə cavabımız onlar üçün çox ağır olacaq. Sülh prosesinin alternativsiz olduğu Azərbaycan tərəfindən irəli sürülüb.

# Güclü və ədalətli




***Yazıya başqa başlıq da qoymaq olardı. Məsələn, “Güclü Azərbaycan”, yaxud “Ədalətli Azərbaycan”. Çünki bu keyfiyyətlərin hər ikisi Azərbaycanda cəmləşib. Ölkəmiz həm güclüdür, həm də bu keyfiyyətindən harada, kimə qarşı və nə qədər istifadə edəcəyinin fərqindədir. Ədalət dağarcığının ağzını açana qədər qarşısındakının düşdüyü vəziyyəti də dəyərləndirir, fürsətdən istifadə etmir, əvəz çıxmaq istəmir. Tarixin bütün zamanlarında qaliblər məğlubları döyüş meydanındakı kimi masada da əziblər, onu rəzil günə qoyublar, istədikləri sənədə qol çəkdiriblər.***

Müasir dövrümüzdə də belədir, ABŞ İraqa özünün tərtib etdiyi koalisiya qüvvələri ilə hücum edərək bu qədim müsəlman ölkəsinin rəhbərini dar ağacına qədər gətirdi, var-yoxunu taladı, ordusunu tar-mar etdi, keçmişi ilə yanaşı gələcəyini də məhv etdi. Liviya da eyni taleni yaşadı, “kommunizm”dən ac-yalavac ölkəyə çevrildi.

Birinci Qarabağ müharibəsində Ermənistan ordusu xaricdən göndərilən maliyyənin və muzdluların hesabına hələ də ordusu formalaşmayan Azərbaycana hücum edəndə imzasını silahsız insanlara, mülki şəxslərə qarşı törədilən vəhşiliklərin, vandallığın altına atanda, qoca, qadın, uşaq, qız-gəlin, əlil-sağır demədən əsir və girovları “dəmir at”ın qabağına qatıb Ermənistana aparanda insanlıqdan uzaq düşdü, bəşər övladına xas olan bütün xususiyyətlərdən imtina edib türkün qanına susadı. Xocalıda baş verənlərin isə insanlığa qarşı, bəşəriyyətə qarşı törədildiyini deyə bilərik. Dünya bu soyqırımı üçün qurulacaq məhkəmədə çox cinayətlə tanış olacaq.

Ermənistan torpaqlarımızın 20 faizini bundan əvvəl bizdən zorla aldığı, ələ keçirdiyi ərazilərə qatmaq istədi. Bu qanunsuz, qeyri-insani əməllərinə hüquqi don geyindirmək üçün özünə arxa-dayaq da tapdı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının həmsədr ölkələrini də prosesə qoşdu. Düz 25 il ATƏT-in həmsədrlik institutu başımızın altına yastıq qoydu, bir sözlə ağsaqqallıq etməyi bacarmadı. Bütün bu proseslərdə həm Ermənistan, həm də onun arxasında duranlar ədaləti unutdular, bəşəri prinsipləri, beynəlxalq münasibətlər sistemində yazılanları rədd etdilər. Və unutdular ki, fələyin çərxi geri fırlana bilər, dövran dəyişə bilər.

Bu günlərdə bir yazı rastına çıxdı, cənublu qardaşımız və həmkarımız olan biri qeyd edir ki, I Qarabağ müharibəsindən sonra fars rejimi Cənubi Azərbaycandakı fəalları yolundan sapındırmaq, inqilab, azadlıq ruhunu sındırmaq üçün deyirdilər ki, Azərbaycan dövləti Qarabağda məğlub oldu və bir daha qələbə qazanması müşkül məsələdir. Azərbaycana arxalanıb bir iş görməyə, azadlıq istəməyə qalxmayın, onsuz da sizin arxanızca kimsə gəlməyəcək. Deyir, əlbəttə, bu sözlər bizi ruhən əyirdi, amma sındıra bilmirdi. Bunun belə qalmayacağına içimizdə bir ümid var idi. Bu gün Azərbaycan 44 günlük müharibənin qəhrəmanı, qalib ölkəsi kimi bizim arxamızda duran böyük gücdür. Fars rejimi daha əvvəlki kimi bizə “ağıl dərsi” keçə bilmir.

Əlbəttə, gücsüzü əzmək, məhv etmək istəyi insanlıqdan kənar ikiayaqlılara məxsus xarakterdir. Dövlətlər arasında da bu yanaşma var, kim zəifdirsə əziləcəyi istisna deyil. Təbii ki, bu yerdə bəzən ədalət prinsipi unudulur, ya da arxa plana keçir. Dünyada gələn-keçən nə qədər imperiyalar olub? Tiranların hakim olduğu dövlətlərlə yanaşı, ədaləti ilə dünya tarixində qalan imperialar da olub. Düzdür, bəzən imperiyalarla ədalətin bir yerə sığışmadığını deyirlər, amma bu tandemin yaşandığını da nümunə kimi çəkmək olar.

Bütün bu deyilənləri, tarixdə baş verənləri, ədalətli, yaxud ədalətsiz imperiaların mövcudluğunu yada salmaqla tarixi bilgilərimizi nümayiş etdirməkdən uzağıq. Bəzən Azərbaycanın qələbəsini onun əldə etdiyi güc hesabına qazanıldığını deyirlər. Qarabağ savaşına Azərbaycan haqsız yerə cəlb olunmuşdu. Bu, Ermənistanın və onun arxasında duran qüvvələrin Azərbaycana qarşı apardığı ədalətsiz və işğalçı müharibə idi. Ermənistan heç vaxt olmadığı əraziləri ələ keçirmək niyyətini gizlətmirdi. Dünya birliyi də bu işğala bilərəkdən loyal yanaşır, ermənilərin “öz müqəddaratını təyinetmə hüququnun” tanınması prinsiplərini əsas götürərək dünyada analoqu olmayan bir cinayətə şərik olduqlarını kifayət qədər dərk edə bilmirlər.

Azərbaycan ədalətin bərpası üçün düz 25 il gözləməli oldu. Dünya hegemonlarının ya Ermənistana gücləri çatmadı, ya da müsəlman ölkəsi olan Azərbaycanın suveren ərazilərinə qarşı törədilmiş işğalçılığı bilərəkdən görməzdən gəldilər. İkinci variant daha çox ağlabatandır. BMT TŞ Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini gördü və hətta qeydə də aldı. Bu haqda 1993-cü ildə hətta 4 qətnamə də qəbul etdi. Sonra... Sonra isə 25 il bizi beynəlxalq təşkilatların qapılarında qoydu, nəticədə münaqişənin həllini dalana dirədi, “ya problemi masada həll edin, ya da masada” prinsipi ilə məsələyə yanaşdı. Təxribatlar isə ard-arda gəlirdi. Ermənistan rəsmilərinin Azərbaycan ərazilərinə, işğal altındakı torpaqlarına səfərləri o qədər intensivləşmişdi ki, sanki bu ərazilər onların dədə-babasınındır. Son təxribatlar isə səbr kasasını daşdırdı, dinc sakinlərə qarşı ağır silahlardan atəş açılması, kənd və şəhərlərimizin dağıdılması Ordumuzun qəti hərəkətə keçməsinə stimul verdi, səbəb oldu.

Bu qədər dağıntıların, yırtıcıya xas əməllərin, xalqımıza qarşı törədilən vəhşiliklərin, işğal altındakı torpaqlarımızda milli, dini abidələrimizə qaşı törədilən vandallıqların qarşılığında Azərbaycan silahlı qüvvələri yenə humanist tərpəndi, müharibəni ədalətli apardı, mülki sakinlərin olduğu ərazilərdəki hərbi təyinatlı obyektlər belə, zərgər dəqiqliyi ilə vuruldu və məhz bu səbəbdən ermənilərin ölənləri arasında qeyri-hərbi hədəflər az oldu. Ermənistan 44 günlük müharibə zamanı bu və ya digər səbəbdən ermənilərin əlinə keçən hərbi əsirlərə qarşı vəhşiliklər törətdi, onlara qarşı işgəncələr tətbiq etdi, halbuki Vyana konvensiyasına görə, əsirlərə qarşı zorakılıq etmək, onlara qarşı şəxsiyyətini alçaldan hərəkətlər etmək qadağan edilir. Azərbaycanın isə hətta erməni diversantlara qarşı münasibəti ermənilərdən fərqli oldu.

Bu gün Azərbaycan qalib dövlətdir. Ermənistanın 30 illik işğalına son qoyub. Həm döyüş meydanında, həm də masada düşmənini məğlub edib. Qalibiyyəti də onun haqqıdır, ədalətsiz müharibədə haqlı olaraq qalib gəlib. Bütün bunlara rəğmən Ermənistana qarşı bütün konvensiyalara uyğun olaraq humanist davranır. Düşmən qonşuya sülh əlini uzadır. Sərhədlərin demarkasiyası və demilitasiyası prosesinə başlamağı erməni dövlətinə təklif edir. İki il yarım müddətində Azərbaycan sülh üçün çox iş görüb, deyə bilərik. Ermənistan isə sözdə sülh arzusunda olduğunu göstərsə də, əməldə bunun əksini edib. Azərbaycana qarşı ərazi iddiasından bir addım belə geri çəkilmədiyini göstərib. Rusiya sülhməramlılarının arxasında gizlənərək Azərbaycan ərazilərində ordu saxlamağa cəsarət edir.

Son hadisələrin baş verməsinin səbəbi də Ermənistanın məğlubiyyəti həzm edə bilməməsidir. Əlbəttə, bu “cəsarət” Ermənistanın özünün deyil. Adəti üzrə başqa ölkələrin dili ilə danışmağa, başqasının silahı ilə üstümüzə gəlməyə çalışır. İrandan PUA, Hindistandan top-tüfəng, Rusiyadan başqa silahlar almaqla Azərbaycanı geri addım atmağa məcbur edəcəyini düşünür. Amma yanılır, Azərbaycan 44 günlük müharibəni silahla yox, ürəklə alıb.

***V.VƏLİYEV***

## Paşinyan: “Ermənistan Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır”

***Ermənistanın baş naziri Nikol Paşinyan aprelin 12-də hökumət üzvləri qarşısında çıxışı zamanı maraqlı bəyanat verib. AZƏRTAC Ermənistan KİV-lərinə istinadla xəbər verir ki, N.Paşinyan ölkəsinin Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdığını etiraf edib. O deyib ki, Madrid prinsiplərinə görə, Ermənistan Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyıb.***



N.Paşinyan qeyd edib ki, 2007-ci ildə Ermənistanda hakimiyyətin ötürülməsi zamanı Serj Sarkisyan baş nazir, Robert Köçəryanın isə prezident olduğu dövrdə ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə hüququnu vurğulayan Madrid Prinsipləri meydana çıxıb. Müəyyən edilib ki, Dağlıq Qarabağın statusu Azərbaycan tərəfindən də razılaşdırılmalı olan mexanizmlə tənzimlənməlidir. Madrid Prinsiplərində deyilir ki, Dağlıq Qarabağın statusu ilə bağlı Azərbaycanla razılıq əldə edilməlidir.

N.Paşinyan deyib: “Bizdə olan etibarlı məlumatlara görə, bu prinsiplərin müəllifi erməni tərəfi olub”.

Ermənistanın baş naziri hakimiyyətə gələrkən 2018-ci ildə bu barədə ictimaiyyətə izahat verməmələrini özlərinin ən böyük səhvi adlandırıb.

# Ermənistan üçün GÖZLƏNİLƏN FƏLAKƏT!



***Çoxdandır ki, Ermənistanda müşahidə olunan anti-Rusiya təbliğatı son zamanlar daha da güclənməkdədir. Bir sıra politoloqlar bunun işğalçı ölkə üçün son dərəcə təhlükəli olduğunu və nəticəsinin həmin ölkə üçün ağır olacağını proqnozlaşdırırlar. Çünki sirr deyil ki, Ermənistanın nəinki təhlükəsizliyi, hətta mövcudluğu belə Rusiya sayəsində qorunub bu zamana qədər. Birinci növbədə ona görə ki, ermənilər özlərinə böyük qardaş saydıqları rusların kölgəsində, himayəsində yaşayıblar. Onsuz da özünü müdafiə edə bilməyən bir işğalçı ölkənin indi həmin "böyük qardaşa" dönük çıxması, ölkədə rusofobiyanı körükləməsi, bununla belə hələ də terrordan, təxribatdan əl çəkilməməsi Ermənistan üçün gözlənilən fəlakət deməkdir.***



Doğrudur, təkcə Ermənistanda deyil, dünyanın bir çox ölkələrində rusofob ritorika artıq çoxdandır ki, müşahidə olunmaqdadır. Məsələ burasındadır ki, Ermənistandan fərqli olaraq həmin ölkələrin müqəddəratı da Rusiya sayəsində qorunmayıb və ruslardan asılı vəziyyətdə də deyillər. Amma rəsmi İrəvan çox yaxşı başa düşür ki, rusların himayəsindən məhrum olmaq ermənilər üçün fəlakətə gətirib çıxaracaq. Hazırkı Ermənistan hakimiyyətinin gah nala, gah da mıxa vuraraq, Rusiyanı qıcıqlandırmaqdan qorxması, şəxsən Nikol Paşinyanın Rusiya prezidenti Vladimir Putinin qarşısında büzüşərək dayanması bu baxımdan təsadüfi deyil. İlk növbədə, erməni baş nazir və onun hakimiyyət komandası başa düşür ki, Qərb meydana çıxana, gəlib çatana qədər ölkələrinin təhlükəsizliyini hər zaman Rusiya qoruyub və ruslar sayəsində ermənilərin səsi çıxıb bölgədə. Başa düşürlər ki, Qərb nə qədər şirin vədlər, yaxud maddi yardımlarda dəstək versə də, Ermənistanı ayaqda saxlayan Rusiya olub. İndiki şəraitdə isə Ermənistan üçün təkcə vədlər, yaxud da maddi yardımlardan əlavə təhlükəsizliyinin təminatı ən böyük şərtdir. Son zamanlar aparılan əməliyyatları, bu əməliyyatlar zamanı acizliklərinini gördükdən sonra ümumilikdə ermənilərin əksəriyyəti buna tamamilə əmin oldular, təkcə Nikol və onun komandası yox.



Görünən mənzərə onu deməyə əsas verir ki, Qərb çoxdandır Ermənistana yağlı tikə göstərir, amma bunun müqabilində marionet kimi həmin ölkəni idarə etməyi planlayır. Hansısa aspektdə buna nail olur da. Məsələn, demokratiya adı altında qurduğu oyunlarının fonunda Paşinyan kimi bir küçə nümayişçisini hakimiyyətə daşıyır, sonra da onun əli ilə istədiyini edir. Guya həmin o küçə nümayişçisi xalqı bir neçə dəfə meydanlara çıxmaqla, bu ölkəni demokratik ölkəyə çevirib. Əslində isə, işğalçı bir ölkə barəsində demokratik ölkə demək özü absurddur və üstəlik, öz əleyhidarlarını təqiblərə, təhdidlərə, təzyiqlərə məruz qoyan, jurnalisti həbs etdirən bir hakimiyyət demokratik ola bilməz. Ermənistanı xaosun hökm sürdüyü bir ölkəyə çevirməklə, Qərb bulanıq suda balıq tutmaq niyyətini ortaya qoyur və son dərəcə ciddi cəhdlə buna çalışır. Belə bir niyyətin Ermənistana nə verəcəyini, daha doğrusu heç nə verməyəcəyini ermənilər gec də olsa başa düşməli idilər. Başa düşməli idilər ki, onları qoruyan hər zaman ruslar olublar, təhlükəsizliklərinin də təminatı Rusiyadır. Dərk etməlidirlər ki, Rusiyanın bu zamana qədər təmin etdiyi təhlükəsizlik sayəsində mövdud olduqları kimi, bundan sonra da eyni şəkildə təminatla gözlənilən fəlakətdən qurtarmaq üçün hansısa şans əldə edə bilərlər. Məhz 44 günlük müharibənin daha acınacaqlı nəticələrindən ruslar sayəsində, Rusiyanın işə qarışaraq, üçtərəfli danışıqları reallaşdırması sayəsində xilas olan ermənilər anlamalıdırlar ki, elə Rusiyanın da köməyi, dəstəyi ilə rəsmi İrəvan qonşuları ilə dil tapa, münaqişəni yoluna qoya bilər. Bundan sonra da nəticədə, sülh danışıqlarının da baş tutması məhz Ermənistanın sonrakı mövcudluğuna, hətta inkişafına şərait yaradar, bu ölkəni fəlakətdən xilas edər. Yoxsa, hələ də hansısa qüvvələr öz çirkin niyyətləri üçün erməniləri təxribatlara sürükləyəcək və bu da cavab reaksiyası nəticəsində bütövlükdə Ermənistanın, erməni cəmiyyətinin mövcudluğunu sual altında qoyacaq, onlara fəlakət gətirəcək.

Ermənistan tarix boyu danışıqlara sadiqlik nümayiş etdirməyib. Yenə də bu ölkənin siyasətində, strategiyasında sadiqlikdən danışmaq mümkün deyil. Məsələn, bu işğalçı ölkə Aİ missiyasının Ermənistanda yerləşdirilməsi barədə nə Rusiya, nə də Azərbaycanla razılığa gəlməyib. Halbuki, danışıqlar, razılaşmalar üçtərəfli qaydada olmuşdu və daha böyük fəlakətdən həmin üçtərəfli danışıqlar sayəsində yaxa qurtara bilən işğalçı ölkə hər iki ölkədən, ən azından heç olmasa Rusiyanın razılığını almalı idi. Amma heç bir razılıq almadı və belə tərzi sözsüz ki, rusların qəzəbinə səbəb oldu. Rusiya tərəfi elə zənn edirdi ki, Ermənistan-Azərbaycan sərhədində KTMT missiyası dəvətli olacaq, lakin bu da belə olmadı. Deməli, Rusiyanın haqlı olaraq narazı düşməsinə əsaslı səbəbləri var. Elə bu səbəblər də onu deməyə əsas verir ki, artıq Rusiya heç zaman Ermənistanın təhlükəsizliyi barədə düşünməyəcək belə. Belə bir vəziyyət isə öz təhlükəsizliklərini qoruya bilməyən ermənilər üçün əsl fəlakət anlamına gəlir. Bunu dərk edə bilməyənlər hələ üstəlik təxribatlara da əl atırlar və özləri üçün fəlakətin daha sürətlə yaxınlaşmasına şərait yaradırlar.

Rusiyanı narazı salan, hiddətləndirən səbəblərdən biri də üçtərəfli bəyanatdan, razılaşmadan sonra Ermənistanın öz silahlı birləşmələrinin qalıqlarını Azərbaycan ərazisindən çıxarmamasıdır. İndi həmin ərazilərdə yerləşdirilən sülhməramlı kontingent daha yaxşı bilir ki, Ermənistan öz silahlı birləşmələrinin qalıqlarını çıxarmaq əvəzinə, həmin ərazilərimizə gizli yollarla hərbi texnika və silah-sursat daşıyır. Bu nə deməkdir və bunun nə kimi nəticələr verəcəyini söyləmək, daha doğrusu, proqnozlaşdırmaq çətindirmi? Əlbəttə ki, yox. Deməli, üçtərəfli sazişin ardınca ermənilər tərəfindən silah-sursat, hərbi texnika ərazilərimizə daşınırsa, belə bəlli olur ki, onlar ən azından növbəti təxribatlara hazırlıq görürlər. Yaxşı, bəs o zaman, yəni ermənilər ağıllarına gələni edirlərsə, Rusiya Sülhməramlı Kontingenti nəyə lazım idi və həmin ərazilərdə onların olmalarının mənası nə olur? İndi ermənilərin davamlı olaraq ərazilərimizə silah-sursat, hərbi texnika, hətta basdırılması nəzərdə tutulan minalar daşıması sülhməramlıların fəlaliyyətinin, mövcudluğunun mənasızlığını ortaya qoyur ki, bu da Rusiya üçün heç də qəbuledilən, arzuolunan deyil. Çünki belə bir şərait sülhməramlıların bölgədə varlığının mənasızlığını ortaya qoyur və onların bundan sonrakı varlığını da sual altına qoyur. Bu isə, öz növbəsində, Rusiyanı tədbirlər görməyə vadar etmək deməkdir və nəticəsinin də Ermənistan üçün fəlakət olacağı təkzibedilməzdir.

Görünən odur ki, davamlı olaraq Ermənistanın öz vədlərinə əməl etməməsi, razılaşmalara, danışıqlara sadiq qalmaması bu ölkənin daha ciddi kataklizmlərlə qarşılaşacağı anonsunu verməyə əsas yaradır. Belə bir halda isə, həmişə olduğu kimi, Qərb yenə də müşahidəçi mövqedən çıxış edəcək. İndi revanşizm əhval-ruhiyyəsi yaratmağa çalışanlar hansısa toqquşmalar törətdikləri zaman, təxribatlar yaratdıqları zaman Qərb gözə də görünməyəcək və dırnaqarası "revanşistlər" meydanda tək qaldıqları zaman, eyni ilə 44 günlük müharibədəki erməni fərariləri kimi dabanlarına tüpürüb qaçacaqlar. Onların həmin anda ruslardan kömək istəməyə artıq üzləri də olmayacaq, təbii ki, belə bir üz varsa.

İndi Ermənistanın mövcud durumu fonunda apardığı siyasət, heç bir əsası olmayan iddialılığı bu ölkənin və ölkə vətəndaşlarının fəlakəti deməkdir. Əlxüsus, bu işğalçı ölkədə artan rusofobiya gözlənilən fəlakəti daha da sürətlə yaxınlaşdırır. Çünki rusofobiyanın get-gedə daha da artması, digər tərəflərdən də öncə Rusiyanın özünün bu işğalçı ölkə ilə əlaqədar ciddi addımlar atmasına əsas verir. Yəni, Rusiyadan üz döndərməklə, rusların himayəsindən məhrum olmaqla, hətta rusofobiya ilə qıcıq yaratmaqla, Ermənistan vətəndaşları da, hakimiyyəti də ölkəni fəlakətə sürükləmiş olur. Üstəlik, hələ də üçtərəfli razılaşmanın şərtlərinə əməl etməyən Ermənistanın bundan sonra Rusiya tərəfindən bir istəyinin belə eşidilməyəcəyini, nəzərə, hesaba alınmayacağını düşündükdə bəlli olur ki, bu ölkəni hansı nəticələr, daha doğrusu, hansı fəlakətli nəticələr gözlədiyir və bu fəlakəti təsəvvür etmək heç də çətin deyil.

Son günlər yenə də Ermənistan tərəfinin təxribatlara əl atması, sərhəddə gərginlik yaratması təsdiq edir ki, bu ölkənin başbilənləri ya başlarını itiriblər, ya da fəlakət astanasında olduqlarının fərqində deyillər. Azərbaycan öz qüdrəti, öz imkanları hesabına təxribatçıları yerində oturtmaq, onları cəzalandırmaq, layiqli cavab vermək əzmindədir. Əgər 44 gün ərzində Ermənistan tərəfi Azərbaycanın gücü qarşısında diz çökdüsə, deməli, itkilərlə üzləşdikdən və tamamilə zəiflədikdən sonra ermənilərin nəyə isə ümid etmələri axmaqlıqdır. Bütövlükdə Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusu qarşısında tab gətirə bilmədisə, deməli, xaotik durumda olan silahlı hərbçi qalıqları ümumiyyətlə, müqavimət belə göstərə bilməzlər və bunu da anlamamaq, belə bir axmaqlıq özü həmin o işğalçı ölkəni daha böyük fəlakətə daşıyır. Dəfələrlə ermənilər şahidi oldular ki, rus sülhməramlıları onları qorumadılar və ruslara dönük çıxanlar indi də onların himayəsindən məhrum olmaqla tamamilə cılız vəziyyətdə olduqlarını təsəvvür etsələr bəs edər ki, fəlakət astanasında olduqlarını anlasınlar.

***İnam Hacıyev***

# Tarix yazan lider!



***Dünyada tarix haqqında yazanlar çox olsa da, tarix yaradanların sayı azdır. Çünki tarix yaratmaq tarix yazmaqdan qat-qat çətin və məsuliyyətlidir. Ulu öndər Heydər Əliyev də tarix yaradan dahi şəxsiyyətlərdəndir. Ümummilli lideri dünyanın bir çox görkəmli ictimai siyasi xadimləri, müdrik insanları ilə müqayisə edənlər çox vaxt onun Azərbaycana rəhbərlik etdiyi dövrləri, yüksək vəzifələrdə olduğu illəri nəzərə çatdırırlar ki, bu da təbiidir.***

Çünki insanlar bu dövrlər barədə daha çox məlumata malikdirlər. Ancaq ulu öndərin həyatının qəhrəmanlıq anlarını, zamanı qabaqlamaq, tarix yaratmaq bacarığını yalnız onun rəhbər vəzifələrdə çalışdığı illərlə ölçmək olmaz. Heydər Əliyevin mənalı həyatının hər günü, hər anı unudulmaz tarixdir, zaman-zaman xatırlanacaq tarixi hadisələrlə zəngindir. İlk olaraq o, öz həyatının, ömrünün tarixini yaradıb. Əgər ulu öndər həyat yolunu düzgün seçib istiqamətləndirməsəydi, özünün şəxsi, ailə və cəmiyyət həyatında mövqeyini qiymətləndirməsəydi, bu yolda qətiyyətli addımlar atmasaydı, o ümumxalq məhəbbəti qazanıb, bəşəriyyətin qəlbində əbədiləşə bilməzdi. Heydər Əliyevin şəxsi həyatı, uşaqlıq və gənclik illəri, ömrünün bütün dövrləri gərgin zəhmətlə keçib. Əlbəttə, bu dövrlərin çətin anları yaşanmasaydı, maneələr qətiyyətlə dəf edilməsəydi sonrakı zamanların uğurları qazanılmazdı. Rəhbərin həyatının səhifələri qeyri-adi, çoxlarına mümkünsüz görünən, qəhrəmanlara xas olan hadisələrlə xarakterikdir. Sovetlər dövründə milli təhlükəsizlik orqanlarında işləmək nə qədər şərəfli olsa da, bir o qədər çətin və məsuliyyətli idi. Heydər Əliyev çox böyük təsirlərə, çətinliklərə məruz qalsa da bu sistemdə şərəfli həyat yolu keçib, öz fəaliyyəti, çoxlarına xas olmayan xeyirxahlığı, vətənpərvərliyi ilə şəxsiyyətini tarixiləşdirib. Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanı daha xoşbəxt, insanları daha firavan görmək istəyirdi. Ümummilli lider dəfələrlə xatırladırdı: "İnsan üçün hər şeydən əvvəl onun vətənidir, torpağıdır. Bir çox əsrlər bu vətənin azadlığının, müstəqilliyinin arzusunda olmuşuq. İndi buna nail olmuşuq və bunu əziz tutmalıyıq". Bu sözlər Azərbaycanın dövlətçilik tərəfinə yeni və unudulmaz bir səhifə yazan ölməz rəhbərin - Heydər Əliyevin nəsillərə ən müqəddəs tövsiyəsi kimi səslənir. Tarix zamanın sınaqlarında, dolaylarında yaranır. Zaman dəyişsə də tarix əbədidir. Bu dünyada yeni bir tarix yaradan dahi insan Heydər Əliyev də əbədidir, ölməzdir. Nə qədər bəşəriyyət var, Azərbaycan, azərbaycançılıq var, müdrik insanları qiymətləndirənlər var, Heydər Əliyev yaşayır və yaşayacaqdır.

***Abasov Səvxan Yusif oğlu,***
***Yasamal rayon İcra Şöbəsinin böyük icra məmuru,***
***1-ci dərəcəli ədliyyə qulluqçusu***

# Heydər Əliyev tarix yazan və yaradan şəxsiyyətdir

## *YAP Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib*

***"Heydər Əliyev İli" çərçivəsində aprelin 12-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib. Tədbirdə YAP-ın Nəsimi rayon təşkilatının üzvü olan fəal gənclər iştirak ediblər. Əvvəlcə Dövlət Himni səsləndirilib. Sonra ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.***



Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar Yeni Azərbaycan Partiyasının silsilə tədbirlər keçirdiyini bildirib. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini deyən A.Süleymanov dahi şəxsiyyətin ideyalarının gənc nəslə aşılanmasının vacib olduğunu söyləyib. Onun fikrincə, Ulu Öndər Heydər Əliyev fenomeninin dövlətçilik tariximizdə müstəsna rolunun gənclər tərəfindən hərtərəfli öyrənilməsi çox önəmlidir.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, Modern Ailə və İnkişaf İctimai Birliyinin sədri Zərifə Quliyeva isə vurğulayıb ki, gənclərlə görüşün keçirilməsində məqsəd dahi şəxsiyyət Heydər Əliyevin əbədiyaşar ideyalarının yeni nəslə təşviq edilməsidir. Çünki Azərbaycanın müasir tarixi, ölkəmizin inkişafı bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Onun sözlərinə görə, Ulu Öndər hakimiyyətdə olduğu bütün dövrlərdə respublikamız və xalqımız üçün müstəsna xidmətlər göstərib, həmin dövrlərdə bütün sahələr inkişaf edib.

Z.Quliyeva qeyd edib ki, Ulu Öndər torpaqlarımızın erməni işğalından azad ediləcəyinə inanırdı və fəaliyyətinin əsas hissəsini bu məsələyə həsr edirdi. 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarınızın azad edilməsi ilə Heydər Əliyevin arzusu gerçəyə çevrildi.

Z.Quliyeva deyib ki, ölkəmizdə gənclər siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Qazanılan bütün uğurların əsasında isə Heydər Əliyev siyasəti və onun layiqli şəkildə davam və inkişaf etdirilməsi dayanır.

YAP Veteranlar Şurasının üzvü, fizika elmləri doktoru, professor Adilə Abasova çıxış edərək Ümummilli Lider Heydər Əliyevin mənalı ömür yolundan, həyat və fəaliyyətinin mühüm məqamlarından danışıb. Ulu Öndərlə bağlı xatirələrini bölüşən YAP Veteranlar Şurasının üzvü bildirib ki, Heydər Əliyev tarix yazan və yaradan bir şəxsiyyətdir: "Ulu Öndər bütün varlığı ilə xalqını, Vətənini sevirdi, doğma Azərbaycanın yüksəlməsi üçün var qüvvəsi ilə çalışırdı. Deyə bilərəm ki, Heydər Əliyevin həyat və fəaliyyəti bir tarixdir".

A.Abasova deyib ki, müstəqil dövlətimiz özünün yeni inkişaf dövrünü yaşayır. Ötən illərə nəzər salarkən biz bu dönməz inkişafın möhkəm təməlinin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulduğunun şahidi oluruq. Bu, bir həqiqətdir ki, Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli istəyi ilə ikinci dəfə Azərbaycanın rəhbərliyinə gələndən sonra müstəqilliyimiz məhz onun qətiyyəti, zəngin təcrübəsi, güclü iradəsi, xalqına bağlılığı sayəsində əbədi xarakter aldı və dövlətimiz bütün sahələrdə inkişafa, yüksəlişə doğru irəlilədi. O, gəncləri Heydər Əliyevin zəngin irsini dərindən öyrənməyə çağırıb. Daha sonra gənclərin sualları cavablandırılıb.







# Böyük quruculuq, böyük inkişaf!

## *Füzulidə Şəhərsalma məsələləri üzrə işçi qrupunun iclası keçirilib*

***Füzuli Beynəlxalq Hava Limanının inzibati binasında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Şəhərsalma məsələləri üzrə İşçi qrupunun iclası keçirilib.***





AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, iclasda işğaldan azad edilmiş Füzuli şəhərində aparılan tikinti-quruculuq fəaliyyəti ilə əlaqədar layihələndirmə işləri, Mərkəzi Parkın layihələndirilməsi, "ağıllı kənd" konsepsiyası ilə bərpaolunan Dövlətyarlı kəndində aparılan tikinti-quruculuq işləri, Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin layihələndirilməsi, rayonda ilkin mərhələdə bərpa ediləcək yaşayış məntəqələrinin elektrik enerjisi və su təminatı, "Köndələnçay" su anbarının yenidən qurulması və digər məsələlər üzrə görülən işlər müzakirə olunub.

Tədbirdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini Nüsrət Süleymanov, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, Qarabağ iqtisadi rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Övsət Həmidov, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin şöbə müdiri İlham Süleymanov, "Azərişıq" ASC-nin Texniki departamentinin direktoru Vüsal Qənbərov, "Azərsu" ASC-nin Planlaşdırma və layihələndirmə departamentinin rəisi Bahadır Kəngərli, "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin İnvestisiyalar və layihələrin idarə olunması şöbəsinin baş məsləhətçisi Elmar Orucov və aidiyyəti qurumların nümayəndələri iştirak ediblər.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov çıxışında bildirib ki, son illərdə işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq istiqamətində böyük irəliləyişlər əldə edilib. Qarabağ və Şərqi Zəngəzurun şəhər, qəsəbə və kəndlərinə Böyük Qayıdış həyata keçirilir. Bu prosesi sürətləndirmək, yaşayış məntəqələrinin gələcəkdə sakinlər üçün daha rahat etmək üçün işğaldan azad olunmuş torpaqlarımızda bu gün milli xüsusiyyətlər nəzərə alınmaqla, qabaqcıl şəhərsalma standartlarına uyğun yenidənqurma və quruculuq işləri aparılır.



Çıxışlarda qeyd olunub ki, işçi qrupunun fevralın 16-da Ağdam şəhərində keçirilmiş iclasının nəticəsi protokollaşdırılaraq qrup üzvlərinə təqdim edilib. Həmin protokola əsasən Ağdam şəhərinin yol-küçə şəbəkəsinin 58,7 kilometr hissəsinin, eləcə də rayonun Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin yaşayış məntəqələrinin layihə-smeta sənədlərinə dair müvafiq ekspertiza rəyinin verilməsi üçün Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinə rəsmi müraciət ünvanlanıb.







Bildirilib ki, ötən müddət ərzində işğaldan azad edilmiş bütün ərazilər kimi, Füzuli rayonunda da genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilib. Qısa müddət ərzində ən yüksək beynəlxalq standartlara cavab verən hava limanı inşa edilərək istismara verilib, Zəfər yolunun tikintisi yekunlaşıb, Füzuli yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi tikilib. Həmçinin Özbəkistan tərəfindən inşa edilən tam orta məktəb binasının, Qazaxıstan tərəfindən inşa edilən Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin, Mənzil İnşaatı Dövlət Agentliyinin inşa etdiyi yaşayış məhəlləsinin və s. obyektlərin tikintisi sürətlə davam etdirilir.

Həmçinin Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Füzuli rayonunun ərazi-planlama sənədlərinin hazırlanması çərçivəsində əhəmiyyətli işlər görülüb. Bu il martın 18-də Füzuli şəhərinin Baş planı Nazirlər Kabineti tərəfindən təsdiqlənib. 2022-2026-cı illərdə bərpaolunan yaşayış məntəqələri üzrə "ağıllı kənd" konsepsiyası ilə yenidən qurulacaq Dövlətyarlı kəndinin şəhərsalma əsaslandırılması təsdiqlənib, Pirəhmədli və Dədəli kəndlərinin konsepsiyası hazırlanıb və həmin sənədlərin də qısa müddət ərzində təsdiq edilməsi təmin olunacaq. Dövlətyarlı kəndində tikinti işlərinin avqust ayında, Pirəhmədli və Dədəli kəndlərində isə oktyabr ayında başlanılması planlaşdırılır. 2023-cü ildə Füzuli rayonunda daha 7 kəndin - Qarğabazar, Cuvarlı, Qoçəhmədli, Qarakollu, Qaraxanbəyli, Horadiz və Mirzəcamallı kəndlərinin layihələndirilməsi nəzərdə tutulur.

Bərpaolunan yaşayış məntəqələrinin küçə-yol şəbəkəsinin qurulması istiqamətində Füzuli şəhərində ümumi uzunluğu 87,55 kilometr olan yol-küçə şəbəkəsinin 18,46 kilometrlik hissəsi üzrə Fövqəladə Hallar Nazirliyinin Dövlət Ekspertiza Baş İdarəsinə təqdim edilib.

Yaşayış məntəqələrinin minalardan təmizlənməsi istiqamətində 2022-ci ildə 1536.8 hektar ərazi minalardan təmizlənib. Cari ildə rayonda yaşayış məntəqələrinin əraziləri üzrə ümumilikdə 2620,9 hektar ərazinin təmizlənməsi nəzərdə tutulub. Cari ilin I rübü ərzində rayon üzrə 622,97 hektar (23,7%) ərazinin minalardan təmizlənməsi artıq həyata keçirilib.

Diqqətə çatdırılıb ki, Füzuli rayonunda 2026-cı ilədək ümumilikdə 5678 evin - 3352 fərdi yaşayış evinin və 2326 mənzilin tikilərək istismara verilməsi nəzərdə tutulur. Ümumilikdə, 2023-cü ildə 399, 2024-cü ildə 447, 2025-ci ildə 2317, 2026-cı ildə 2515 evin inşası həyata keçiriləcək. MİDA tərəfindən inşa olunan 846 mənzillik yaşayış kompleksinə 2024-cü ildə ilk əhali qrupu (2904 nəfər) köçürüləcək. Bütövlükdə tikiləcək evlərə 21593 nəfər, o cümlədən Füzuli şəhərinə 8009 nəfər əhalinin köçürülməsi planlaşdırılır.

Bundan əlavə, Füzuli rayonunda Peşə Liseyinin, Mərkəzi xəstəxananın, Mərkəzi parkın, inzibati binanın layihələndirmə işləri sürətlə davam etdirilir.

Sonra "İşğaldan azad edilmiş ərazilərdə əhalinin dayanıqlı məşğulluğunun təmin edilməsinə dair" Tədbirlər Planı, müvəqqəti yerləşdirilən kamplar, "Böyükbəhmənli-Şuşa" və "Azadqaraqoyunlu-Ağdam" magistral qaz kəmərlərinin layihələndirilməsi, Füzuli rayonunda su anbarlarının və sutəmizləyici qurğularının layihələndirilməsi və tikilməsinin vəziyyəti, Mədəniyyət Nazirliyinin Qələbə parkı və Memorial parkının layihələndirilməsi vəziyyəti barədə müzakirələr aparılıb.

Müzakirələrdən sonra ərazidə aparılan bir sıra tikinti-bərpa işləri ilə tanışlıq olub. Qazaxıstan tərəfindən inşa edilən Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinə, şəhər mərkəzdə tikilən çoxmənzilli binalara, həmçinin Özbəkistan tərəfindən inşa olunan 960 şagird yerlik orta məktəb binasında aparılan işlərə baxış keçirilib.

# “Bu dəfəki yumruğumuz ölümcül olacaq”

***Bildiyimiz kimi, aprelin 11-i saat 16:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutub. Bu barədə Azərbaycan Müdafiə Nazirliyindən bildirilib. Daha sonra qarşı tərəf minaatan və iriçaplı silahlardan da istifadə etməklə mövqelərimizi atəşə tutmaqda davam edib.***

Hərbi qulluqçularımızın sayıqlığı nəticəsində Ermənistan tərəfinin təxribatının qarşısı qətiyyətlə alınıb, atəş mövqeləri susdurulub. Ordumuz tərəfindən görülən cavab tədbirləri zamanı Ermənistan silahlı qüvvələrinin bölmələri xeyli sayda itki verib. SİA mövzu ilə bağlı QHT rəsmiləri arasında sorğu edib.

“Yaşıl Dünya” Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərli: “11 aprel təxribatının bütün məsuliyyəti Ermənistanın və işğalçı dövləti Azərbaycanla sülh müqaviləsi imzalamağa qoymayan fitnəkar siyasi çevrələrin və dövlətlərin üzərindədir. İşğalçı dövlətin bu cür təxribatlarının beynəlxalq ictimaiyyət tərəfindən sülh sazişi üzrə danışıqlara ciddi çağırışlar fonunda baş verməsi Ermənistanın sülh prosesində maraqlı olmadığını göstərir.

Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini tapdalayaraq Azərbaycana qarşı təxribatlar aparır, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini pozur, eyni zamanda regional sülh və təhlükəsizliyi ciddi şəkildə təhdid edir. Açıq-aşkar görünür ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsində məğlub olan, həmin ilin 10 noyabrında kapitulyasiya aktına imza atmağa məcbur olan Ermənistan böyük zəfərlə bitən əks-həmlə əməliyyatından dərs çıxarmayıb. Ordusu darmadağın edilən Ermənistan mümkün olduğu qədər zaman qazanmaq və revanş götürmək niyyətindədir. Ermənistanın hərbi-siyasi elitasını buna həvəsləndirən İranın və Fransanın fitnəkar siyasətidir. Ermənistanın baş naziri Nikol Paşinyan noyabrın 10-da Azərbaycan, Rusiya Federasiyası və Ermənisan arasında imzalanmış Üçtərəfli Bəyanata uyğun olaraq Azərbaycanın Şərqi Zəngəzur və Naxçıvan bölgələri arasında quru əlaqəsinin yaranmasına razılıq vermişdi. Lakin Ermənistandakı revanşist qüvvələr və İran dövləti Zəngəzur dəhlizinin aşılmasına mane olur. 11 aprel təxribatı ilə Ermənistan bir daha ikiüzlü siyasət yeritdiyini, sülhə sadiq olmadığını sübut etdi. Buna baxmayaraq Azərbaycan sülhə sadiqdir.

Biz Cənubi Qafqazda dayanıqlı sülhün əldə olunmasını istəyirik. 30 il bölgədə sabitlik olmadı. Ərazilərimiz işğal altında qaldı, şəhər və kəndlərimiz yerlə bir edildi. İşğal dövründə Qarabağda geniş miqyaslı ekosid törədilib. Qiymətli filiz yataqları barbarcasına istismar edilib. Torpaqlarımız minalarla çirkləndirilib. Biz öncə o minaları təmizləməli, sonra geniş miqyaslı tikinti-quruculuq işlərini sürətləndirməliyik. Bizim onsuz da işimiz çoxdur. Bizə müharibə lazım deyil. Amma əgər ordusu sındırılmış düşmən revanş almaq istəyirsə, bunu görməyəcək. Azərbaycanın güclü ordusu var. Silahlı qüvvələrimiz modern silahlarla, texnika ilə təchiz edilib. İkinci Qarabağ savaşının qalibi bizik. Sülh danışıqları da bizim diktəmiz altında keçməlidir. Gec-tez Ermənistanın hərbi-siyasi rəhbərliyi bunu anlayacaq. Su tökməklə quyuda su olmaz. İranın 5-6 PUA-sı ilə revanşa ümid etmək cahillikdir. Azərbaycan ordusu düşməni dizə gətirəcək. Azərbaycanla Ermənistan arasında sərhəd müəyyənləşdiriləcək. Qarabağda yaşayan erməni vətəndaşlarımız Ermənistanla get-gəli sərhəd-keçid məntəqəsi vasitəsilə edəcəklər”.



”Kamillik Vətəndaşların Hüquqi Maarifləndirilməsi” İctimai Birliyinin sədri Niyaz Niftiyev: “Dünən sərhəddə baş verənlər bir daha göstərdi ki, müharibə bitməyib, sadəcə, atəşkəs əldə edilib. Bu artıq 2020-ci ilin noyabr sazişindən sonra ermənilərin 3-cü təxribatıdır. Artıq sülh sazişin imzalanmasından 3 ilə yaxın vaxt keçir, erməni tərəfi öhdəliklərin yerinə yetirilməsində tərəddüd etməkdədir. Bununla da vaxt qazanır, Fransanın təhriki ilə regiona Avropa İttifaqının mandatı ilə çoxsaylı müşahidəçi cəlb edir. İranın dəstəyi ilə Zəngəzur dəhlizinin açılması prosesini ləngidir. Rusiyanın bölgədə mövcud olan sülhmıramlı kontingentinin ağır tonnajlı yük maşınları ilə Xankəndinə silah-sursat daşıyır. Bu nə deməkdir? Əlbəttə ki, ciddi müharibə hazırlıqları var.

Düşünürəm ki, yekun sülh müqaviləsinin imzalanması yalnız növbəti irimiqyaslı müharibədəki qələbəmizdən sonra mümkündür. Necə ola bilər ki, kapitulyasiyaya imza atan dövlət ötən müddətdə sürətlə silahlansın və müharibə ritorikası ilə danışsın. Deməli, ermənilərin təminatı var, proses də ona görə yubanır. Belə davam etsə, bir 30 il də işğal altında olan torpaqlarımız uğrunda “diplomatiyanın dili” ilə mübarizə aparacağıq. Hazırda başqa yolumuz yoxdur, regionda vəziyyət bizim üçün gərgin olaraq qalmaqdadır. Rusiya və İran Ermənistanı sülhdən uzaqlaşdırır. Keçirilən Brüssel görüşləri, gözlənilən ABŞ danışıqları ermənilər üçün vaxt qazanmaq, bizim üçün isə vaxt itkisindəın başqa bir şey deyil”.

“Vətəndaş Maarifləndirilməsi” İctimai Birliyinin icraçı direktoru, siyasi şərhçi Elşad Məmmədli: “Hər dəfə sülh danışıqları ərəfəsində Ermənistan bu və digər formada təxribatlara əl atır. 2022-ci ilin avqust-sentyabr aylarında da biz bunu müşahidə etmişdik. Həmin vaxt sülh müqaviləsi üzrə müəyyən razılaşmaların olacağı gözlənilirdi, ancaq Ermənistan bundan boyun qaçırmaq üçün sərhəddə davamlı təxribatlara başladı. Nəticədə, 12-15 sentyabr hadisələri baş verdi və bununla da sülh danışıqları pozuldu. İndi də məlumatlar vardı ki, may ayında Vaşinqtonda sülh danışıqlarının növbəti mərhələsi olacaq. Ermənistan neçə gündür təxribatlara hazırlaşırdı, bunu həm Paşinyanın xaotik açıqlamaları, həm də düşmənin sərhəd boyunca qüvvələr cəmləşdirməyə başlaması deməyə əsas verirdi. Gözlənildiyi kimi, 11 apreldə bu təxribat baş verdi. Bu, həm də o vaxtda baş verdi ki, Azərbaycan 30 illik işğal dövründə müəyyən oluna bilməyən sərhədlərini gücləndiririk. Yəni Laçın rayonunda Ermənistanla sərhəddə dəqiqləşdirmə aparırdıq, yeni postlarını qururduq və təbii ki, öz suveren ərazimizdə bunu edirdik.

Ermənistanı bu təxribatlara həm də bölgədə sülh olmasını istəməyən qüvvələr təhrik edə bilər. Bəllidir ki, Ermənistan hər zaman xarici təsir dairələrinin diktəsi ilə hərəkət edib. Bir neçə gün öncə Paşinyan Rusiya prezidenti ilə telefonla danışmışdı. Bunun ardınca Ermənistan sərhəddə təxribat törətdi. Həmçinin, Azərbaycan Laçın yolunun Ermənistanla sərhəd hissəsində post qoymaq planlarını icra etməyə başlayan kimi, İran generalları xain açıqlamalar verməyə başlamışdılar. Onlar gizlətmirdilər ki, ermənilərə dəstək verəcəklər. Ümumiyyətlə, İran Zəngəzur məsələsində məkrli bir mövqe tutub. Ehtimal etmək olar ki, İran İrəvanla bir müddət əvvəl hərbi müttəfiqlik haqda saziş imzaladığını bəhanə edərək, Zəngəzura hərbi qüvvələrini gətirməyə çalışsın.

Digər bir məqam isə odur ki, Ermənistan bu təxribatı törətməklə Avropa İttifaqın müşahidə missiyasına da guya daim təhdid, təhlükə altında olduqlarına dair “faktlar” verməyə çalışıb. Bütün hallarda Ermənistan bu təxribatı törətməklə hiyləgərcəsinə özünün yazıq, əzilən obrazını yaratmağa çalışıb, həm də xarici təsir dairələrinin də təhriki ilə sülh danışıqlarını pozmaq istəyib.

Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi İctimai Birliyinin sədri, Əməkdar Jurnalist Nadir Azəri: “Təəssüflər olsun ki, Ermənistanda işğalçı və terrorçu zehniyyət dəyişmir. Bu ölkədə hakimiyyətdə hansı qüvvənin olmasından asılı olmayaraq Ermənistan bölgə üçün təhlükə mənbəyi olaraq qalır. Dünən Köçəryanlar, Sarkisyanlar hansı dağıdıcı, terroçu, işğalçı xislətlə bu ölkəni idarə edirdisə, bu gün də Nikol Paşinyan və onun kukla, gah Şərqə, gah da Qərbə baxıb, əmr gözləyən komandası həmin xislətə əsaslanan siyasət həyata keçirir.

Aprelin 11-də Ermənistan tərəfindən törədilən növbəti təxribat da deyilənləri bir daha təsdiqlədi. Hər şey gün kimi aydındır. Bu ölkə, bu ölkənin siyasi və hərbi rəhbərliyi hər hansı sülh müqaviləsi imzalamaq fikrində deyil. Əksinə, bunlar uzaq-yaxın xarici havadarlarının təhrikedici bəyanatlarından şirnikləşərək, yenə müharibə ritorikasına üstünlük verirlər. Bir sözlə, mövcud Ermənistan hakimiyyətinin sülh danışılqları adı ilə sadəcə imitasiya etdiyi bütün çılpaqlığı ilə ortadadır. Belə olan halda isə onların başına daha bir “Dəmir yumruq” vurmaqdan başqa çıxış yolu qalmır. Amma onlar bilsin ki, budəfəki yumruğumuz ölümcül olacaq. Hesab edirəm ki, Ermənistanın bu cinayətkar addımları bir daha təkrarlanarsa, Azərbaycan Ordusu son nöqtəni qoymalı, bölgəyə əbədi sülhün gəlməsi üçün sülhəməcburetmə əməliyyatı keçirməlidir”.

”Cəmiyyətin İnkişafı Mərkəzi ” İctimai Birliyinin sədri Əhməd Abbasbəyli: “Bu gün Azərbaycan sərhədlərində Laçın rayonu ərazisində baş vermiş hadisə-silahlı qarşıdurma həm hiddət, həm də təəssüf hissi doğurur. Əslində, son zamanlar Fransanın proseslərə qeyri-obyektiv, ədalətsiz münasibətlərinədn və İranın-Azərbaycan münasibətlərində yaranmış gərginlikdən, ölkəmizə qarşı səsləndirilən qərəzli fikirlərdən, davranışlardan həvəslənən az qala ekstaza gələn Ermənistanın ritorikası, imkanlarına uyğun gəlməyən ambisyaları gec-tez bu cür təxribatları qaçılmaz edirdi.

Azərbaycan tərəfinin sərhədlərin demarkasiyası, sülh müqaviləsinin tezliklə bağlanmasının vacibliyi, reinteqrasiya və s. kimi çağırışlarını eşitməməzlikdən gələn, bərpa yenidənqurma işlərinə isə gözügötürməməzlik və xəbislik nümayiş etdirən Ermənistan məlum səbəblərdən, yalançı vədlərdən ruhlanaraq sanki özündə bir cəsarət tapmış, Azərbaycanın xoşniyyətli təkliflərini cavansız qoyur və sanki fürsət axtarırmış kimi görünürdü. Nəhayət Avropa İttifaqını missiyasının Ermənistann gəlişi isə bu ölkənin rəhbərliyini daha cəsarətləndirmiş, öz mənfur niyyətlərinə nail olmaq, “öz əsassız iddialarını gerçəkləşdirmək üçün zəmin yaratmış, ağalarının” tapşırılarını yerinə yetirmək üçün hərəkətə keçmək prosesini tezləşdirmişdi. Əslində, dünya üçün, aləxüsusda region üçün həssas və təhlükəli bir dövrdə, Azərbaycanın təklifləri, atdığı bütün addımlar həm hər iki dövlətin gələcəyi, vətəndaşların təhlükəsizliyi baxımından, həm də regionda sabitliyin, əminamanlığın bərqərar olması baxımından çox vacib və əhəmiyyətlidir. Ermənistan başa düşməlidir ki, Azərbaycan həm siyasi, həm iqtisadi, həm resurs və nəhayət hərbi cəhətdən özündən dəflələr zəif olan tərəflə kifayət qədər mülayim davranış sərgiləməsi, yetərincə yumşaq təkliflər irəli sürməsi, artıq kifayət qədər uzun müddət səbr nümayiş etdirməsi, həm dövlətlərarası münasibət baxımından, həm diplomatiya və beynəlxalq müansibətlər baxımından unikal bir hal olmaqla yanaşı, həm də alicənablıq, nəcibilik, “böyüklük” nümunəsidir. Ermənistan nəhayət ki, anlamalıdır ki, qisasçılığa və ifrat nasizmə köklənmiş bu cür məsuliyyətsiz, həyasız, fürsətcil, davranışları həm Ermənistan dövlətini, erməni xalqını daha böyük təhlükələrə sürükləyir, regionun yeni bir qarşıdurma ocağına çevrilməsinə səbəb olur. Elə bu gün, Ermənistanın təxribatı nəticəsində hər iki tərəfin itkilərinə səbəb olmuşdur. Qarşı tərəfdən itkilər çox olsa da ordumuz da şəhid vermişdir. Tökülən şəhid qanları yerdə qalmayacaq, Ermənistan törətdiyi cinayətlərə görə mütləq cavab verəcək. Allah şəhidlərimizə rəhmət eləsin. Vətən sağ olsun! Bizim işimiz haqq işidir!”.

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid ailələri İctimai Birliyinin sədri, ehtiyatda olan polkovnik Mehdi Mehdiyev: “Bu il aprelin 11-də günün ikinci yarısında Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Gorus rayonu ərazisindən Ordumuzun Laçın rayonu istiqamətində yerləşən mövqeləri müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutulub. Bölmələrimizin sayıqlığı nəticəsində düşmənin növbəti təxribatının qarşısı alınıb və düşmən qüvvələrinə xeyli sayda itkilər verdirilib. O cümlədən, Ermənistan ordusunun korpus komandiri də yaralanıb.

Bu olayların dünyada gedən proseslər və qardaş Türkiyədə seçkilərə hazırlıq gedən bir dövrdə baş verməsi yenə də İranın maraqlarına xidmət etdiyini göstərir. Amma İran rejimi unudur ki, Azərbaycan artıq 30 il öncəki kimi deyil. Azərbaycanın güclü, müasir silahlarla silahlanmış peşəkar ordusu var və düşmənə layiqli cavab verməyə qadirdir. Fikrimcə, bu cür silahlı münaqişələr sülh sazişi imzalanana qədər dəfələrlə təkrarlanacaq. Bu səbəbdən də həm sərhəd boyu, həm də ölkə daxilində hər zaman ayıq-sayıq olmalıyıq. Təəssüflə qeyd edirəm ki, bu münaqişədən biz də itkisiz çıxmadıq. Allah şəhidlərimizə rəhmət eləsin, yaralılarımıza şəfa versin”.

***Ayşən Vəli***

# Heydər Əliyev-100

# İdarəetmədə Heydər Əliyev zəkası



***Sovet İttifaqının parçalanması və respublikaların İttifaqdan ayrılaraq müstəqil yaşamağa başlamasından sonra iqtisadi əlaqələrin kəsilməsi, dövlət planlaşdırması və idarə edilməsi ləğv edildiyindən, xarici bazara sərbəst çıxış olmadığından xammal və texnologiyalar əldə edə bilməyən zavod-fabriklər sıradan çıxdı, təsərrüfat böhrana düşdü, ordu dağılmağa başladı, sosial tənəzzül yaşandı. Sosialist iqtisadi sistemindən kapitalizmə keçid prosesi özü ilə çoxsaylı problemlər gətirdi. Yaranmış vəziyyət təcili tədbirlər görülməsini, iqtisadiyyatda, müdafiədə, sosial siyasətdə dönüş yaradılmasını tələb edirdi. Lakin 90-cı illərin əvvəllərində respublika hökuməti bu işin öhdəsindən gələ bilmədi. Vəziyyət yalnız 93-cü ilin ortalarından- ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra dəyişməyə başladı.***

## Azərbaycanda ictimai-siyasi sabitliyin memarı siyasətçilərin gözü ilə





## DƏYİRMİ MASA

Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra da apardığı məqsədyönlü və qətiyyətli siyasət nəticəsində Milli Ordu formalaşdırıldı, Azərbaycanın nizami Silahlı Qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü, orduda kütləvi fərarilik hallarına son qoyuldu, hərbi intizam möhkəmləndirildi. Bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan orduya malik olması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərdən biri sayıla bilər.

"Səs" qəzetinin redaksiyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "dəyirmi masa"lardan növbətisi təşkil olundu. "Dəyirmi masa"dakı müzakirələrə Yeni Azərbaycan Pariyasının Veteranlar Şurasının sədri Arif Rəhimzadə, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Sumqayıt Şəhər Təşkilatının sədri Ramiz Hüseynov, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədr müavini Fəsli Nəbiyev, siyasi ekspert Abutalıb Səmədov, Yeni Azərbaycan Partiyasının veteran üzvü Valeh Seyfiyev iştirak ediblər.

Dəyirmi masanı giriş sözü ilə "Səs" qəzetinin siyasət şöbəsinin müdiri İlham Əliyev açdı. O qeyd etdi ki, "Səs" qəzeti cəmiyyətin maraq dairəsində olan ən aktual, əhəmiyyətli mövzular çərçivəsində hər zaman "dəyirmi masa"lar təşkil edib və bu masa ətrafındakı söhbətlər həmişə maraqla qarşılanıb. Budəfəki "dəyirmi masa" söhbətinin mövzusu isə adı Azərbaycanın müstəqillik tarixinə qızıl hərflərlə yazılan Ümummilli Lider Heydər Əliyev və Onun Azərbaycanın taleyindəki əhəmiyyətli xidmətləridir:

"Cənab Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Ümummilli Lider Heydər Əliyevin istər sovet hakimiyyəti illərində - 1969-cu ildən başlayaraq Azərbaycanın birinci katibi vəzifəsində çalışdığı zamanda, istərsə də 1993-cü ildə hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycanın ictimai-siyasi və mədəni həyatında baş verən dönüş, inkişaf, eləcə də, ölkəmizin dünya məkanında özünəməxsus yer tutması onun məqsədyönlü fəaliyyətinin məntiqi nəticəsidir. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə ölkəmizdə siyasi böhran yaşandığı, vətəndaş müharibəsi təhlükəsi yarandığı, Ermənistanın təcavüzünün gücləndiyi bir vaxtda siyasi hakimiyyətə qayıdaraq Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması üçün ciddi və təxirəsalınmaz addımlar atdı. Bu gün qonaqlarımızla Ulu Öndərin xatirəsini yad etməklə yanaşı, Onun Azərbaycanın müstəqilliyi uğrunda həyata keçirdiyi işlərdən danışacağıq".

YAP İdarə Heyətinin üzvü, YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə Ulu Öndər Heydər Əliyevin bir siyasi xadim və şəxsiyyət kimi bənzərsiz xüsusiyyətləri haqqında söhbət açaraq, onun uzaqgörən bir siyasətçi və lider, vətənini və həmvətənlərini hər şeydən üstün tutan bir vətəndaş, olduqca diqqətcil və qayğıkeş bir insan kimi örnək olduğunu qeyd edib: "Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 30 ildən artıq bir dövr dövlətçiliyimizin və xalqımızın intibahında tarixi bir mərhələ təşkil edib. Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsi, çiçəklənmə, milli oyanışın formalaşması dövrü oldu. 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmiz məhv olmaq təhlükəsindən qurtardı.

Heydər Əliyev öz misilsiz fəaliyyəti ilə Azərbaycan tarixinin ən şərəfli səhifələrini yazan, müstəqil Azərbaycanımızın memarı və qurucusu olan böyük tarixi şəxsiyyət ünvanına yüksəldi. Heydər Əliyev azərbaycanlı olmasından necə böyük qürur duyurdusa, bizlər, dünyanın dörd bir tərəfində yaşayan azərbaycanlılar da onunla fəxr edir, qürur duyuruq.



Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsinə, çiçəklənmə, cəmiyyətdə yeni dünya baxışının formalaşması, insanların öz qüvvə və imkanlarını dərk etməsi dövrünə çevrilib. 1990-cı illərin əvvəlində - tarixinin bu böhranlı məqamında da xalq ümidini böyük oğlu Heydər Əliyevə bağlamışdı. Xalqın şüurunda Heydər Əliyev təkcə 1970-80-ci illərdəki quruculuq fəaliyyəti ilə deyil, həm də blokada şəraitində yaşayan Naxçıvandakı gördüyü işlərlə Azərbaycanın gələcəyinə ümidlə baxmağa əsas yaradırdı. Hamı başa düşürdü ki, ölkəni bu fəlakətlərdən yalnız Heydər Əliyev xilas edə bilər. 1993-cü ilin iyun hadisələri zamanı xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyev Bakıya gəlməyə razılıq verdi.

Ulu Öndər hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan yeni bir dövrə - inkişaf və tərəqqi dövrünə qədəm qoydu, dağılmaq ərəfəsində olan ölkəmiz dinamik inkişaf edən bir ölkəyə çevrildi. Məhz Ulu Öndərin siyasi uzaqgörənliklə işləyib hazırladığı, Azərbaycanın hərtərəfli inkişafı və dünyanın ən güclü dövlətlərindən birinə çevrilməsi məqsədi daşıyan mütərəqqi siyasi kurs sayəsində ölkəmiz qısa müddətdə regionun lider dövlətinə, əsl söz sahibinə çevrildi. Heydər Əliyev siyasi kursunu uğurla davam və inkişaf etdirən Prezident İlham Əliyevin zəngin dövlətçilik təcrübəsi, siyasi uzaqgörənliyi, məqsədyönlü fəaliyyəti sayəsində dünya güclərinin hesablaşdığı müasir, müstəqil Azərbaycan beynəlxalq münasibətlər məkanında öz layiqli yerini tutub.

Ümummilli lider Heydər Əliyevin müasir və müstəqil Azərbaycana rəhbərliyinin əsas nəticəsi ondan ibarətdir ki, dağılmaq ərəfəsində olan ölkəmiz dinamik inkişaf edən bir ölkəyə çevrilib. Bu heç də asan başa gəlməyib. Azərbaycanı inkişaf yoluna yönəltmək üçün böyük zəhmət sərf olunub. Odur ki, biz Heydər Əliyevin qurucusu olduğu bugünkü Azərbaycanı daim qorumalıyıq. Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etdi. Bu gün həmin ərazilərdə bərpa-quruculuq işləri aparılır".

YAP Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov çıxış edərək regionun ən böyük siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının ölkədə aparılan bütün mütərəqqi işlərin önündə getdiyini, Azərbaycan siyasi sisteminə hər zaman yeniliklər gətirdiyini və bu sahədə bir çox uğurlara imza atdığını vurğulayıb: "Ümummilli liderimiz Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP-ın 30 illik tarixi zəngin və şərəfli inkişaf yoludur. Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqların ifadəçisi olmasıdır. Tarixi şəxsiyyət olan ulu öndər Heydər Əliyevin yaratdığı və bu gün onun əbədiyaşar ideyaları əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyasının həyata keçirdiyi düzgün və məqsədyönlü siyasət ölkəmizin inkişafını şərtləndirən əsas amillərdəndir.

Ümummilli liderimiz Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP-ın 30 illik tarixi zəngin və şərəfli inkişaf yoludur. Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqların ifadəçisi olmasıdır. Tarixi şəxsiyyət olan ulu öndər Heydər Əliyevin yaratdığı və bu gün onun əbədiyaşar ideyaları əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyasının həyata keçirdiyi düzgün və məqsədyönlü siyasət ölkəmizin inkişafını şərtləndirən əsas amillərdəndir.

Bu gün sürətlə inkişaf edən müstəqil dövlətimizi uğurlu inkişafa aparan bu yolda hər bir Azərbaycan vətəndaşı Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, vətənin mənafeyi naminə səy göstərir. Yeni Azərbaycan Partiyasının arxada qoyduğu möhtəşəm 30 ilə nəzər yetirsək, qürur hissi ilə vurğulaya bilərik ki, YAP qüdrətli siyasi təşkilat olmaqla Azərbaycanın dövlətçilik maraqlarının qətiyyətli və etibarlı müdafiəçisidir".

***Yazının davamı sabahkı sayımızda...***

***Lalə Mehralı***





# “BÖYÜK QAYIDIŞ” XALQIMIZIN QARŞISINDA DURAN AKTUAL ÇAĞIRIŞIDIR



***İki il əvvəl, sentyabrın 27-də işğalçı Ermənistanın növbəti təxribatına cavab olaraq əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusu 44 günlük Zəfər yürüşü ilə ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Müharibədən sonrakı dövrün yaratdığı reallıqlar ölkəmizin qarşısında yeni çağırışlar müəyyən etdi. Bu gün Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş kəndlərimiz, şəhərlərimiz yenidən, qurulur, dirçəlir. Bütün işlər ardıcıl və sistemli şəkildə həyata keçirilir. Məhz Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” mütərəqqi beynəlxalq təcrübə əsasında, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınmaqla hazırlanmışdır.***

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan əraziləri əhatə edən Dövlət Proqramı strateji hədəf və məqsədlərdən ibarətdir. Həmçinin Dövlət Proqramı çərçivəsində Böyük Qayıdışla bağlı mühüm prioritet vəzifələr müəyyən olunmuşdur.

### VERİLƏN VƏDİN GÖSTƏRİCİSİ: GÖRÜLƏN İŞLƏR, HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏR

Dövlət başçımızın hər dəfə işğaldan azad olunmuş torpaqlara səfəri bir daha göstərir ki, işğaldan azad olunmuş əraziləri qısa zaman kəsiyində bərpa etməsi üçün önündəki yeganə maneə zamandır: “Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz”.Və Prezident İlham Əliyevin zəfərdən ötən bu ikiillik qısa zaman kəsiyində mütəmadi olaraq işğaldan azad edilən ərazilərə səfərlər etməsi, erməni vəhşilərinin yerləyeksan etdiyi qədim şəhərlərimizin yeni bünövrələrini qoyması, yeni yolların, tunellərin, beynəlxalq hava limanlarının təməllərini atması, bütün infrastrukturu başdan yaratması Böyük qayıdışın tezliklə reallaşdırılmasına mühüm təkan verdi. Azərbaycan ağır müharibədən çıxsa da, işğaldan azad etdiyi bölgələri öz iqtisadiyyatının gücü sayəsində yenidən qurur, bu ərazilərdə irimiqyaslı müasir infrastruktur layihələri icra edir.Və Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş bu proqram Qarabağ və Şərqi Zəngəzurda bu günə qədər aparılan geniş quruculuq işlərinin məntiqi davamıdır, strateji hədəflərə çatmaq üçün, eləcə də bundan sonra həyata keçiriləcək tədbirlərin mükəmməl yol xəritəsidir və müstəqil Azərbaycan tarixinə Qarabağın yenidən qurulmasını tənzimləyir. Elmi cəhətdən də əsaslandırılmış mükəmməl sənəd olan Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapıb. Dövlət proqramı 2022-2026-cı illəri əhatə edir. Proqramda deyilir ki, Azərbaycan hökuməti 2027-ci ilə qədər Qarabağ və Şərqi Zəngəzurda 280 min ha ərazinin minalardan təmizlənməsini planlaşdırır.

### ZƏNGİLANDAN BAŞLANILAN “BÖYÜK QAYIDIŞ”

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva ötən il mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər zamanı dövlət başçısı Qarabağımıza «Böyük Qayıdış»ın rəmzi olan, Zəngilanın Ağalı kəndinin “Ağıllı kənd” layihəsi ilə yenidən qurulmasının başa çatması ilə əlaqədər Zəngilan rayonunun Ağalı kəndində ictimaiyyətin nümayəndələri ilə görüşdə demişdir: «İstəyirəm ki, tezliklə bütün keçmiş köçkünlər qayıtsınlar dədə-baba torpaqlarına və biz əlimizdən gələni edəcəyik ki, bunu tezləşdirək”. Xalqımız artıq 30 ildir ki, azad xalq kimi yaşayır və bütün əldə edilmiş nəticələr, o cümlədən şanlı Qələbəmiz bax, bunun təməlindədir, bu müstəqilliyin təməlindədir. Ona görə müstəqillik ən böyük dəyərimizdir, sərvətimizdir, qoruyuruq və əbədi qoruyacağıq. Bu gün “Böyük Qayıdış” dediyimiz prosesə start verildi. “Böyük Qayıdış”ın birinci kiçik addımı, bax, bu gün atılır”, - deyən Azərbaycan Prezidenti bildirib ki, bu gün iqtisadi cəhətdən müstəqil ölkələrin sayı o qədər də çox deyil: «Bunu yaxın tarix göstərir. Ancaq biz tam müstəqilik, heç kimdən asılı deyilik, öz həyatımızı özümüz qururuq və heç bir yardıma, kreditə ehtiyacımız yoxdur. Əksinə, biz özümüz indi bəzi ölkələrə kreditlər veririk. Məhz iqtisadi müstəqillik nəticəsində bu gün, bax, bu Ağalı kəndi deyə bilərəm ki, dünyanın ən mütərəqqi kəndlərinin birinə çevrilib. Bunu biz etmişik, öz gücümüzlə və azad edilmiş bütün digər torpaqlarda öz gücümüzlə bərpa işlərini aparırıq və indi nəhəng layihələr icra edilir. Bu haqda Azərbaycan xalqı müntəzəm olaraq məlumatlandırılır”.

### 3 İL ƏRZİNDƏ (2021-2023-CÜ İLLƏR) QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN BƏRPA BƏ YENİDƏNQURMASINA YALNIZ DÖVLƏT BÜDCƏSİNDƏN 7 MİLYARD 870 MİLYON MANAT VƏSAİT AYRILIB

Azərbaycan Böyük Qayıdışı öz daxili maliyyə mənbələri hesabına reallaşdırır. 2023-cü il üçün dövlət büdcə layihəsinə əsasən, Böyük Qayıdış layihəsi çərçivəsində işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası ilə bağlı xərclər 3 milyard manat nəzərdə tutulub. Qeyd edək ki, büdcədən 2021-ci ildə bərpa prosesinə 2.2 milyard, 2022-ci ildə 2 milyard 670 milyon manat nəzərdə tutulmuşdu. Bu isə o deməkdir ki, 3 il ərzində (2021-2023-cü illər) Qarabağ və Şərqi Zəngəzurunun bərpa bə yenidənqurmasına yalnız dövlət büdcəsindən 7 milyard 870 milyon manat vəsait ayrılır. Bu, məhz Qarabağın daha qısa müddətdə bərpasına olan xüsusi diqqətdir. O da məlumdur ki, işğaldan azad olunmuş ərazilərin böyük iqtisadi potensialı var. Bu potensialın reallaşdırılması üçün işğaldan azad olunmuş ərazilərdə yeni müəssisələr tikilməli, sahibkarlıq fəaliyyətləri qurulmalıdır. Bu fəaliyyətlərin uğurla qurulması üçün investorları stimullaşdıracaq uzunmüddətli vergi və gömrük güzəştləri tətbiq olunacaq. Proqramın icrası müddətində işğaldan azad olunmuş torpaqlarda yaradılacaq yeni istehsal sahələri bu ərazilərə qayıdacaq insanların işlə təmini məsələlərini də qabaqcadan həll etməyə kömək edəcək.

Bir sözlə, bütün bu deyilənlərə əsaslanaraq bir daha əminliklə söyləmək olar ki, 30 illik işğala 44 gündə son qoyan və bu gün Zəfər yürüşünü inamla davam etdirən Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirməklə, Böyük Qayıdışı ən yüksək səviyyədə təmin etməklə bir daha öz qüdrətini bütün dünyaya nümayiş etdirəcək və insanlarımız yurd həsrətinə son qoyaraq öz doğma torpaqlarında firavan yaşayacaqlar. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

***RƏFİQƏ KAMALQIZI***



ELÇİN

# Bəs nəzarətçilərə kim nəzarət edəcək?

*Mürəkkəb məsələlərin həlli həmişə sadə və asan anlaşılan olur - Qrosman qanunu*

Hər hansı bir cəmiyyətin, dövlətin ən böyük problemi korrupsiya ola bilər. Çünki bütün sahələrdə ədalətli, düzgün, effektiv nəticələrin əldə edilməsi üçün orada korrupsiyanın olmaması lazımdır.

Bəs korrupsiya anlayışı özündə nələri ehtiva edir. Korrupsiya cəmiyyətin, dövlətin ədalətsiz qanun və qaydalarına qarşı təzahür edən bir mənəvi-psixoloji xəstəlik kimi çox qədimlərdən bərqərar olub. Tarix boyu müxtəlif ictimai-siyasi formasiyalarda, fərqli sosial-ictimai münasibətlərin mövcud olduğu dövlət və cəmiyyət formalarında bu bəlaya qarşı müxtəlif səviyyələrdə mübarizələr aparılıb.

Buna baxmayaraq, tarixin heç bir dövründə heç yerdə korrupsiyanın qarşısını tam almaq mümkün olmayıb. XX əsrin əvvəllərinə aid mətbuatı və ədəbiyyatı oxuyanda korrupsiyanın nə qədər dərinə işlədiyini görürük.

Sovet dövründə bu halların qarşısı xeyli dərəcədə alınmışdısa da, tamam kökünü kəsmək mümkün olmadı. Lakin, bəzi dövrlərdə onun səviyyəsi minimumadək endirilib. Məsələn, 30-40-cı illərdə Stalinin və Bağırovun hakimiyyəti dövründə korrupsiya halları xeyli dərəcədə azalmışdı.

Həmin dövrdə ölkədə sərt qayda-qanunlar hökm sürürdü. Faşizmə qarşı ağır müharibə aparıldığı bir vəziyyətdə mənəvi dəyərlər ön plana çıxmışdı, həm də, vətəndaşlar bir-birinin hərəkətlərinə daha çox nəzarət edirdi. Nəhayət müharibə şəraitinin ağır qanunlarının hökm sürdüyü bir yerdə o qanunları pozanların sərt cəzalandırılmasından doğan qorxu hissi kimi faktorlar vardı.

Sonrakı dövrdə yumşalma baş verdiyindən belə halların yenidən artması müşahidə olundu. Demək, nəzarətin və cəzanın ciddiliyi burda yeganə olmasa da, çox mühüm rol oynayır.

Burada digər faktorların da əhəmiyyətli rolu var ki, onların sırasında məmurların maaşlarının azlığı, qanunvericiliyin mükəmməl olmaması, dövlət nəzarətinin zəifliyi, ictimai nəzarətin yoxluğu, maddi dəyərlərin mənəvi dəyərləri üstələməsi kimiləri qeyd etmək olar.

Korrupsiyanın qarşısının alınması ilə bağlı müvafiq sahə ilə məşğul olan ekspertlər kifayət qədər metodlar irəli sürüblər. Mənə qalsa, təklif edərdim ki, rüşvət təklif edən və verən rüşvət alandan daha sərt cəzalandırılsın. Fikrimcə, bu, çox yaxşı effekt verərdi. Belə bir təklif də var ki, korrupsiyaya yol vermiş şəxslərin reyestri aparılsın və onlar gələcəkdə dövlət orqanlarına işə götürülməsin. Korrupsiyaya yol verən şəxslərin adı, vəzifəsi, şəkli mətbuatda mütamadi verilməli, onlar necə deyərlər, tarixə həkk edilməlidir.

Əminəm ki, bu həddən artıq effektli metod olardı. Korrupsiya dövlətin, cəmiyyətin ən böyük bəlası, bütün problemlərin birbaşa və ya dolayı baiskarı olduğu üçün ona qarşı bütün metodlar məqbuldur.

Burda medianın və vətəndaş cəmiyyəti institutlarının da rolu əvəzsizdir. İctimai nəzarət bütün dövlət strukturlarının səmərəli və şəffaf fəaliyyətində böyük rol oynaya bilər. Burda əsas rol vətəndaşların üzərinə düşür. Çünki rüşvət verilməyən yerdə rüşvət alına bilməz. Bunu bir neçə ay əvvəl AzTv-nin “Çıxışa doğru” verilişində aparılan müzakirələr zamanı səsləndirəndə bəzi iştirakçılar mənimlə razılaşmadı, amma bu həqiqətdir- heç kim rüşvət verməsə, heç kim də ala bilməyəcək. Bu aksiomadır. Demək, rüşvət təkcə hansısa məmurların deyil, bütün cəmiyyətin günahıdır.

Bəzən korrupsiya terminini rüşvətlə eyniləşdirirlər, lakin rüşvət korrupsiyanın çoxsaylı müxtəlif formalarından yalnız biridir. Hesab edirəm ki, əsas məsələ təkcə az maaşlı müəllim, həkim və sairin rüşvət almasına qarşı ciddi cəzalandırılması deyil.

Rüşvətlə yanaşı, yerlibazlıq, qohumbazlıq, nüfuz qazanmaq, gələcək karyera istəyindən doğan hər cür təmənnalı fəaliyyət formalarına qarşı da güclü mübarizə aparılmalıdır. Əsas məsələ, nəticələrə qarşı deyil, onu yaradan səbəblərə qarşı mübarizə aparmaqdır. Təcrübə göstərir ki, sosial ədalətin təmin olunduğu cəmiyyətdə belə halların səviyyəsi son dərəcə az olur. Deməli, dövlət işi elə tənzimləməlidir ki, korrupsiyaya şərait yaradan hallar aradan qaldırılsın.

Korrupsiyaya qarşı lazımi dərəcədə qanunvericilik bazası, milli fəaliyyət planı var. Əsas problem qanunların tələblərini düzgün yerinə yetirməkdən ibarətdir. Bunun üçün də həm dövlətin, həm də cəmiyyətin nəzarət institutları aktiv olmalıdır.

Bununla belə, dairənin tam qapanması üçüb ortada son bir bağ qalır ki, burada artıq vicdan və əxlaq amili son sözü deyir. Bu da icraçılara nəzarət edənlərlə bağlıdır. Onlar vicdanlı olmasa, korrupsiyanın qarşısını almaq olmayacaq. Den Braunun məşhur “Rəqəmli qala” əsərində yapon hakerin sloqanı həddən artıq düşündürücüdür- “bəs nəzarətçilərə kim nəzarət edəcək?”. Nəzarətçilərə nəzarəti ancaq vicdan və əxlaq edə bilər. Korrupsiyanın kökünü kəsmək üçün vicdanlı və əxlaqlı insanlara ehtiyac var. Əks halda heç bir inzibati yolla bunu etmək mümkün olmayacaq.

# Türkiyə nüvə dövləti olmağa hazırlaşır

## *İslamabad bu məsələdə də Ankaranın yanındadır*

***"Türkiyənin prezidenti Ərdoğan şəxsən Pakistanın hərbi rəhbərliyindən xahiş edib ki, nüvə silahının istehsalı üçün aparılan texnoloji işləri onun ölkəsi ilə bölüşsünlər". Bu barədə Hindistanın Zee News India nəşri yazır və bildirilir ki, Türkiyə və Pakistan arasında İslamabadın Ankaraya nüvə-raket texnologiyalarını verməsi ətrafında danışıqlar aparılır. Həmçinin bildirilir ki, nüvə müzakirəsi hələ 2020-ci ilin dekabrında bu ölkələrin birgə keçirdikləri "Ali hərbi dialoq" mövzusundakı iclasda da qaldırılıb.***



### Rəcəb Tayyib Ərdoğan Pakistanın quru qoşunlarının rəisi Kamar Caved Bacvadan şəxsən xahiş edib ki...



Ankaradakı danışıqlarda Türkiyə tərəfini Silahlı Qüvvələr Baş Qərargahının rəis müavini, general Selcuk Bayraktaroğlu, Pakistan tərəfini isə müdafiə məsələləri üzrə dövlət katibi, general Mian Muhamməd Hilal Husseyn təmsil ediblər.

Hind nəşri yazır ki, Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan Pakistanın quru qoşunlarının rəisi Kamar Caved Bacvadan şəxsən xahiş edib ki, nüvə texnologiyaları ilə bağlı aparılan işləri və istehsal məsələlərini Türkiyə ilə bölüşsünlər və Pakistan tərəfi də buna razılıq verib. Adıçəkilən nəşr həmçinin bildirir ki, pakistanlı alimlər türk tərəfinə raketlərin gücünün artırılması yönündə yardımlarını əsirgəmirlər.

### Artıq Türkiyənin Pakistanın istehsal etdiyi və nüvə başlığı üçün mühüm olan bir miqdar sentrifuq məhsulu da var

Qeyd edək ki, Türkiyənin nüvə başlığı istehsalı ilə bağlı hazırlıq prosesinə başlaması daha əvvəllər də bildirilirdi. Artıq Türkiyənin Pakistanın istehsal etdiyi və nüvə başlığı üçün mühüm olan bir miqdar sentrifuq məhsulu da var. Həmçinin indidən ehtimal etmək olar ki, Türkiyə regiondakı təsirini və gücünü artırıb. Bu gün dünyanın aparıcı və hegemon dövlətləri bir çox qlobal siyasi məsələlərdə Ankara ilə hesablaşır, Türkiyənin müxtəlif miqyaslı problemlərdə vasitəçilik və s missiyaları öz önəmliyi ilə seçilir. Belə olan halda Türkiyənin həm də nüvə dövlətinə çevrilməsi mümkünlüyü Ankaranın dünyadakı yerini və rolunu daha da artıracaq.

Pakistana gəldikdə isə, bu ölkə 1998-ci ildə özünün nüvə sınaqlarını uğurla keçirib. Üstəlik, bu sınaqlar Hindistanın nüvə sınaqları keçirməsindən iki həftə sonra baş verib. Məhz həmin vaxt Pakistan dünyaya bəyan etdi ki, artıq bu dövlət də nüvə gücünə malikdir.

***Rövşən RƏSULOV***

# "Türkiyə seçiciləri reallıqları obyektiv qiymətləndirəcək"

"Türkiyədə 14 may tarixində prezident və parlament seçkiləri keçiriləcək. Bu seçkilər təkcə Türkiyə üçün deyil, bütün dünya üçün çox əhəmiyyətlidir. Hətta bu hadisəni geosiyasi seçki kimi səciyyələndirmək olar". Bunu millət vəkili Elşad Mirbəşiroğlu "Səs" qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, hazırda Rusiya ilə Qərb arasında münasibətlər qırılma nöqtəsindədir: "Dünya yeni bir nizama doğru getməkdədir. Bu, çoxqütblü dünya sistemidir. Hesab edirəm ki, qardaş Türkiyənin hazırkı mövqeyi olduqca əhəmiyyətlidir. Bu baxımdan, Türkiyədəki seçkilər dünyanın diqqət mərkəzindədir. Qərb bu mübarizədə müxalifətin qələbə qazanmasında maraqlıdır. Rəcəb Tayyib Ərdoğanın mövqelərinə də təsir etmək üçün bütün resursları müvafiq olaraq işə salıb. Klıçdaroğlu bildirib ki, qalib gələcəyi təqdirdə Rusiyaya Türkiyənin NATO dövləti olduğunu xatırladacaq. Yəni, Türkiyənin mövqeyində kardinal dəyişikliyin olacağının anonsunu verib. Amma Rəcəb Tayyib Ərdoğanın mövqeyi ondan ibarətdir ki, dünya ölkələri ilə Türkiyənin maraqları çərçivəsində konstruktiv əməkdaşlığı davam etdirsin. Ərdoğan Türkiyənin Qərbin əlində alət olmasına imkan vermədi və ölkəni milli maraqlara uyğun tam müstəqil siyasət yeridən bir dövlətə çevirdi. Bu baxımdan, kənardan olunan bütün cəhdlərə baxmayaraq Ərdoğan seçkilərdə qələbə qazanacaq. Bu, Türkiyə tarixinin ən əhəmiyyətli qələbəsi olacaq. Çünki Türkiyəni bundan sonrakı taleyi məhz bu seçkilərdən asılıdır. Seçkilərdə müxalif tərəf qazanacağı halda Türkiyənin Qərbin yenidən geosiyasi ambisiyalarının bir alətinə çevriləcəyi gözləniləndir. Hesab edirəm ki, Türkiyə müstəqil siyasət yeritmək imkanlarını ortaya qoymayacaq".

E.Mirbəşiroğlu onu da bildirib ki, müxalif cinahın tərkibinə diqqət yetirsək görərik ki, onların hamısı Qərbdən gələn təlimatlar əsasında davranmaqdadırlar: "Bu da Türkiyənin gələcəyi üçün çox ciddi təhdidlər yaradır. Bu baxımdan, qardaş Türkiyə xalqı ayıq olacaq və Ərdoğanın Türkiyə üçün və Türk dünyası üçün etdiklərindən çıxış edərək yenidən onu dəstəkləyəcəklər. Ərdoğanın qələbəsindən qardaş Türkiyə nə qədər qazanacaqsa, Türk dünyası və dünya da bir o qədər qazanacaq. Çünki Ərdoğanın rəhbərlik etdiyi Türkiyənin hazırda sərgilədiyi mövqe dünyaya sülh, təhlükəsizlik və barışın təmin olunmasına xidmət edir və dünyanın daha yaxşı gələcək imkanlarının genişləndirir. Bir sözlə, Türkiyə seçiciləri reallıqları obyektiv qiymətləndirərək yenidən cənab Ərdoğanı dəstəkləyəcək və o, Türkiyənin prezidenti seçiləcək".



***GÜLYANƏ***



## Qardaşı qızı ilə evlənən əmi

**LALƏ MEHRALI**

***İllər öncə bizim televiziyalardan birində "Qaraçı qanı" adında bir ispan teleserialı yayımlanırdı. Hansı evin kandarından içəri girirdin bu serialın həyəcanlı sədası eşidilirdi. Nə böyüklər kiçiklərdən ar edirdi, nə kiçiklər böyüklərdən həya. Dədəli-balalı, babalı-nəvəli hamı döşənirdi televizorun qabağına. Dum, dum, gup, gup – həyəcanlı səslərin müşayiəti ilə serialı izləyirdilər.***

Xülasə, çoxsaylı tamaşaçı auditoriyası olan serialın mövzusu isə təxminən belə idi: "Gənc bir qız özündən təxminən 10 yaş böyük bir kişini sevir, münasibət və intim yaxınlıqları olur, bir necə il sevgili olurlar, sonra məlum olur ki, onlar, əslində, əmi-qardaşqızıdırlar. Yaxın ətrafları, habelə qızın anası və atası da bu məsələni bilirlər, amma onların münasibətlərini bildikləri halda da susurlar. Sirlərini gizlətmək əminin öz qardaşı qızı ilə yaxınlıq etməsindən daha vacib görünür onlara. Əmi və qardaşqızı məsələni öyrəndikdən sonra da bir-birindən ayrılmırlar, sadəcə, yaşadıqları yeri dəyişirlər, evlənirlər, 4-5 uşaqları olur".

Cəmiyyəti pozan, milli dəyərləri sıradan çıxaran, əxlaqsızlıq aşılayan seriallar barədə bir araşdırma hazırlayırdım illər əvvəl. Buna görə də uzun müddət seriallar üzərində düşünməli, hamısını bir-bir təhlil etməli idim. Öncə yerli telekanallarda yayımlanan və ya vaxtilə yayımlanmış serialları araşdırdım. Sosial şəbəkələrdəki dostlardan biri yadıma bu serialı saldı.

"Reklam olmasın" deyə serialın yayımlandığı kanalın adını çəkməyəcəm, o kanalın internet ünvanına baş çəkdim. Diqqətli oxucu özü anlayacaq söhbət hansı televiziyadan gedir.

Deməli, kanalın saytında indiyədək yayımladıqları seriallar haqqında bölmə vardı, orada mən bəhs etdiyim serialın qəhrəmanlarının da fotoları yerləşdirilmiş, haqlarında yazılmışdı. Rəsimlərin altından da tamaşaçıların rəyi verilmişdi. Tamaşaçılar serialı, kanalın zövqünü o qədər mədh eləmişdilər, o qədər tərifləmişdilər ki, sanki bizim cəmiyyət pozulubmuş, əxlaqsızlıq baş alıb gedirmiş, bu serial bizim əxlaqımızı düzəldib, tərbiyəvi əhəmiyyət daşıyıb.

Məni sarsıdan da bu rəylərdən biri oldu. Hələ də yadıma düşəndə sümüklərimədək sızıldayıram. Bir qadın yazmışdı: "Hörmətli televiziya, sizə çox təşəkkür edirəm ki, belə gözəl serial təqdim edirsiniz. Çox gözəl serialdır, hər baxanda özümü düşünürəm, çünki bu serial mənim həyatımla tamamilə eynidir".

Məsələ aydın idi, ikrah duyduğumuz bu hadisə bizim ölkədə də baş veribmiş. Serial bizim minilliklər boyu oturuşmuş, kök salmış, müqəddəs bildiyimiz adətləri kökündən silmək, məhv etmək məqsədi daşıyırdı. Bu kimi serialların bir məqsədi var – cəmiyyətin qəbul etmədiyi, əxlaqsızlıq bildiyi belə hadisələri adiləşdirmək.

Məhz buna görədir ki, Latın Amerikasının istehsalı olan bu tip əxlaqsız məzmunlu seriallar bizim və bizim kimi yuxusu dərin olan ölkələrə pulsuz verilirdi. Bir qəpiksiz. Məqsədləri aydın deyilmi? Məhrəm bilinənləri yox etmək, əxlaqsızlıq hesab olunan davranışları adiləşdirmək, stereotipləri qırıb-parçalamaq və nəticədə cəmiyyəti pozğunluğa sürükləmək.

Məqsədlərinə nail olurdular yavaş-yavaş. Onlar işi yavaş-yavaş görürlər. Lap pambıqla baş kəsmək kimi bir şeydir onların işi. Əxlaqsız davranışları özündə cəmləşdirməyi qarşısına öhdəlik qoymuş Braziliya seriallarının ölkəmizin teleməkanından yığışdırılması isə xalqın əxlaqının qorunması üçün ən yaxşı qərar idi. Serialları bizə pulsuz sırıyanların isə həvəsləri qursaqlarında qaldı. Hələ ki...

ARAŞDIRMA

# Görücü üsulu, yoxsa sevib evlənmək?



***Xüsusilə biz türklərin mədəniyyətində çox rast gəlinən görücü üsulu evlilik oğlanla qızın bir-birini tanımadıqları evlilik üsuludur. Bizdən bir-iki nəsil əvvəl, cəmiyyətimizdə nikahların ən azı 90 faizi görücü üsulu ilə baş tutub. Bəs, indi vəziyyət necədir?***



SİA mövzu ilə bağlı araşdırma aparıb. İndi müxtəlif tanışlıq mərhələlərindən keçən gənclər bir-birini yaxşı tanımadan qərar qəbul etmirlər. Görücü üsulu evlilik mədəniyyətin böyük bir hissəsini təşkil edir. Bəzən bir-birini heç tanımayan insanlar bu yolla qısa zamanda ər-arvad olurlar. Görücü üsulu evlilik oğlanın anası və ya oğlanın özünün qız görüb bəyənməsi ilə başlayır. Daha sonra qızın ailəsi ilə tanış olan qayınana vəziyyəti qızın anasına danışır. Bu mərhələdə, adətən, qızın anası qızdan istəyini soruşur. Qızın razılığını aldıqdan sonra qız istəmə mərasimi başlayır.

Elçilik mərasimi, ilk növbədə, qadınlar arasında baş verir. Bu, faktiki mərasimə hazırlıq mərhələsidir. Qız tərəfi qadınlara yol açır. Qızın anası ailə daxilində nikahla bağlı son qərarını qayınanasına izah edir. Qız istəmədə ana, ata və bir neçə ailə ağsaqqalı və bəy namizəd iştirak edir. Qız istəmə mərasiminin əsas sualları olur. Çünki qızın ailəsi və xüsusən də evlənəcək qız kişini heç bir şəkildə tanımır.

### Oğlunuzun işi, qazancı nədir?



Oğlunuzun pis vərdişi varmı?
Oğlunuzun evi, maşını var?

Bu suallar çoxlarına qəribə gəlsə də, qızın atası qızını verəcək adamın yaxşı ailə başçısı olmasını istəyir. Ona görə də bu suallar verilir. Nişan mərhələsi cütlüklər üçün çox önəmlidir. Çünki onlar bu prosesdə bir-birlərini tanıyırlar. Bir-birini daha yaxşı tanıyan v ə bir-birini sevməyə başlayan cütlüyü evlilik və toya hazırlıq prosesi gözləyir.

Aşiq olan cütlüyün evlilikdən çox böyük ümidlər və gözləntilər yaşayacağını təxmin etmək çətin deyil. Bunun üçün demək olar ki, hər yerdə keçərli olan universal sevgi dilinə baxmaq kifayətdir. Sevginin ölçüsü və intensivliyi xoşbəxt evliliyə zəmanət verirmi?

Xoşbəxt bir evliliyin açarının sevgi olduğu bir çox aşiq cütlük tərəfindən qəbul edilir. Beləliklə, aşiq olan cütlüyün evliliklərindən ümidləri və gözləntiləri olduqca yüksək ola bilər. Təəssüf ki, "sevginin gözü kordur" ifadəsi olduqca realdır. Fərdlər, yalnız görmək istədiklərini görərək kor olurlar.

### Evlənməzdən əvvəl bir çox amilləri nəzərə almaq lazımdır

Evliliyin uzun ömürlü, məmnunluq və xoşbəxtlik təmin edəcək bir qurum olmasını istəyiriksə, evlilikdən əvvəl tanınma və qərar vermə mərhələlərində bir çox faktoru nəzərə almaq lazımdır. İki insan arasında emosional uyğunluq, cinsi uyğunluq, münaqişələrin həlli bacarıqları, həyat problemlərinə dair gözləntilər, qərar vermə bacarıqları, əxlaqi dəyərlər və inanclar, ailə harmoniyası, evlilik büdcəsinin idarə edilməsi, rollar, iş bölgüsü, uşaq sahibi olmaq və sayı, və karyera məqsədləri və s. bu kimi məsələlərdə onların razılığa gəlməsi vacibdir.

### Valideynlər arasındakı münasibətlər də vacibdir?

Ana və atanın münasibəti, necə kişi və qadın rollarına sahib olduqları, aralarındakı iş bölgüsü, qərarların necə alındığı, sevgi göstərmələri, mübahisə etmələri kimi bir çox faktorlar var ki, bunlar uşağın öyrənməsində çox təsirlidir. Bu kimi amillər uşağın öyrəndiklərini yetkin həyatında quracağı münasibətlərə köçürməsi üçün böyük əhəmiyyət kəsb edir.

***Ayşən Vəli***







# Qadınlığa hörmət edək

Mətanət Məmmədova

***Azərbaycan qadını hər zaman geyim-keçimi, oturuşu-duruşu, hərəkətləri, danışığı ilə nümunə olub. Oğlunun, qızının, qohum-qonşunun məsləhətkeşi, yol göstərəni olub. Biz nənələrimizin tövsiyəsi ilə boya-başa çatmışıq, cəmiyyətdə mövqeyimizi tutmuşuq. Tərbiyə etdiyimiz övladlarımız başımızı uca edib, hərəkətləri, danışıqları ilə nümunə olublar.***

Azərbaycan qadını zamanında kişilərin yanında ağzının yaşmağını gözlərinə qədər çəkib. İsməti, iffəti, namusu, arı, həyası ilə hər vaxt nümunə olub. Qonşunun yolunu gözləyib, qohumun yanında ləyaqəti ilə hörmət qazanıb. Qayınatasının yanında yemək yeməyib, uşağını qucağına almayıb. Qayınanasının yolunu gözləyib, deyilən hər sözü böyüdüb probleme çevirməyib.

Azərbaycan qadınının günlərlə saya biləcəyimiz bu qədər dəyərli keyfiyyətləri fonunda müasir dövrümüzdə elə qadınlarla qarşılaşırıq ki, sözün həqiqi mənasında, adam xəcalət çəkir. Məsələn, bəzi qadınlarla qarşılaşırsan ki, geyimindən xəcalət çəkirsən. Ətrafdakı insanların ona baxışını öz üzərində hiss edir və düşünürsən ki, o baxışların nə ifadə etdiyi sənə də aiddir. Bəli, başqa cür ola da bilməz, çünki sən də qadınsan.

Məsələ tək geyim olsa, dərd də yarı olar. Son vaxtlar bəzi qadınlarımız nəinki geyimlərini bilmirlər, hətta ictimai yerlərdə nə danışdıqlarının belə fərqində deyillər. Sanki düşünmürlər ki, kənardan bütün diqqətlər onların üzərindədir, geyimlərindən, oturub-durmalarından, hərəkətlərindən tutmuş danışıqlarınadək hər biri kənardan müşahidə olunur və qiymət verilir. Belə isə onlar nə üçün qadınlıq adına hörmət etmək istəmirlər? Məsələn, məşhur aktrisamız İnstagramda canlı yayım açır və buradan bəyan edir ki, heç düşünmürəm, hansısa kişi ilə, ərlə ömrümün sonuna kimi bir evdə yaşayım. Müğənni qadın televiziya kanallarından birində avtomobil idarə edərkən heç vaxt kəmərdən istifadə etmədiyini inadla bildirir. Yəqin buna ehtiyac olmadığını düşünür. Lakin əslində avtomobildən istifadə qaydalarında kəmərin taxılması vacib məsələlərdən biridir və buna görə müxtəlif cərimələr və cəzalar var.

Bəzi televiziyalarda bəzi aparıcı qadınlarımızın isə geyimlərində, danışıqlarında xoşagəlməyən nüanslar var. Bu xanımlar düşünürlər ki, efirdən hər sözü söyləmək olar, studiyaya gələn qonaqla istədiyi kimi danışmaq, ona irad bildirmək olar. Lakin anlamaq istəmirlər ki, həmin qonaq onun nə övladıdır, nə də tənbeh edə biləcəyi yaxın qohumu.

Beləliklə çox təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, müasir cəmiyyətimizdə Azərbaycan qadınının, əsl azərbaycanlı xanımın gözəl keyfiyyətlərinə xələl gətirən qadınlar var. Lakin bu qadınlar oturub danışdıqları söz, hərəkətləri və geyimləri haqqında ətraflı düşünməlidirlər. Bunu etməyə borcludurlar. Çünki bir azərbaycanlı qadın olaraq necə geyinəcəklərinə cavabdehdirlər. Bir azərbaycanlı qadın olaraq xalqın içində necə danışmalı olduqlarını bilməlidirlər. Azərbaycanda ailə dəyərlərini zaman-zaman qoruyub dövrümüzədək gətirib çıxarmışıqsa, heç kimin bu dəyərləri dəyərdən salan sözlər söyləməyə haqqı yoxdur. Ailə qurmaq hər bir qızın istəyidir, ailədə həyatı paylaşmaq həm də qızlarımızın gələcəyidir. Belə olan halda "ərlə bir ömür bir evdə yaşaya bilmərəm" deyən qadın bu istəyini içində saxlasın, əsla üzə çıxarmasın.

Televiziya kanallarına dəvət alan qonaqlarımız gənclərin tərbiyəsinə mənfi təsir göstərən sözləri də içlərində saxlayıb üzə çıxarmasalar, düzgün olar. Avtomobil idarə edərkən kəmərdən istifadə olunmalıdır, istər müğənni ol, istər ən yüksək vəzifə sahibi. Bunu anlamaq o qədər də çətin məsələ deyil.

Qaldı bəzi aparıcı xanımlarımıza, onlar da ağızlarından çıxan sözləri götür-qoy edib, ölçüb-biçsələr, geyimlərinə fikir versələr, əla olar. Beləliklə biz ümumilikdə azərbaycanlı xanımların dəyərinin qədrini bilmiş və ona hörmət etmiş olarıq. Bunu unutmayaq.

# Şəhərlə kənd arasındakı sosial bərabərsizlik aradan qaldırılır

*Regionların inkişafı əhalinin rahat yaşamaq imkanlarını daha da artırır*



***Bu gün Azərbaycanın inkişafı yalnız onun paytaxtının hesabına deyil, regionlarının da hesabına reallaşır. Bu, bir faktdır ki, regionlarımızdakı vəziyyət 20 il əvvəllə müqayisədə tamamilə dəyişib. Rayon mərkəzləri, kənd və qəsəbələrmiz sözün əsl mənasında, yeni bir sima qazanıblar. Aparılan işlər regionların inkişaf potensialının artmasına, biznes və investisiya mühitinin, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin yaxşılaşmasına, əhalinin rifahının yüksəlməsinə və ekoloji təhlükəsizliyə şərait yaradıb. Bir sözlə, bu gün kəndlə şəhər arasındakı bərabərsizliyin aradan qaldırılması istiqamətində aparılan işlər onların arasındakı fərqi minimuma endirməyə hesablanıb və artıq bu istiqamətdə uğurlu nəticələr də var. Çünki 2004-cü ildən başlayaraq uğurla icra olunan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları davamlı olaraq həyata keçirilməkdədir.***



Azərbaycan qlobal pandemiya dövründə belə, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrasını təxirə salmadı. Çünki Prezident İlham Əliyev ötən dövrlərdə genişmiqyaslı iqtisadi inkişaf üçün ciddi zəminlər yaratmışdı. Xüsusilə regionların sosial-iqtisadi inkişafını diqqətdə saxlayan ölkə başçısı verdiyi tapşırıqların icrasını mütəmadi olaraq şəxsən yoxlamaq üçün tez-tez regionlara səfər edərək həm görülən işlərlə maraqlanır, həm də sakinlərlə səmimi görüşlər keçirərək onların problemlərini öyrənir. Bir çox hallarda isə vətəndaşın problemi yerindəcə həll edilir və ya dövlət başçısı tərəfindən məsələnin həlli ilə bağlı aidiyyəti qurumlara tapşırıqlar verilir. Həmçinin Prezident müxtəlif sosial-iaşə obyektlərinin, zavod-fabriklərin açılışında iştirak edir, görüşlərdəki bütün çıxışlarında dövlətin gördüyü işlərə, həm də əhalini narahat edən məsələlərə aydınlıq gətirir.

Bölgələrimizdə aqrar sənayenin sürətli inkişafı da diqqət çəkir. Xüsusilə, aqroparkların yaradılması aqrar sahədə inkişafı sürətləndirməklə bərabər, ixracyönümlü məhsulların sayının artmasında və ölkənin ixrac potensialının gücləmməsində əhəmiyyətli rol oynayır. Son 5 ildə ölkəmizin 32 rayonu üzrə 239,3 min hektar ərazidə ümumi layihə dəyəri 2,4 milyard manat olan 51 aqropark və bir neçə iri fermer təsərrüfatları yaradılıb. Bunlardan 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i sırf heyvandarlıq, 2-si isə çeşidləmə-qablaşdırma, emal və logistika sahələri üzrə ixtisaslaşıb. İndiyədək aqroparklara 1,3 milyard manat özəl investisiya qoyulub. Bununla yanaşı, dövlət tərəfindən aqroparklara müvafiq dəstək tədbirləri görülüb. Belə ki, investisiya təşviqi sənədi almış 27 aqroparkdan 26-na texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 43,7 milyon manat dəyərində güzəştlər tətbiq olunub, 25 aqroparkın yaradılması və ya fəaliyyətinin genişləndirilməsi üçün 184,2 milyon manat güzəştli kredit verilib. Aqroparklar üçün infrastruktur təminatı dövlət vəsaiti hesabına həyata keçirilir. Burada digər önəmli məsələ odur ki, aqroparklar məşğulluq səviyyəsinin artırılmasında da mühüm rol oynayır. Hazırda aqroparklarda ümumilikdə 5 minədək işçi daimi, 6 mindən çox işçi isə mövsümi işlə təmin olunub. Yaxın 2 il ərzində əlavə 4672 iş yerinin açılması nəzərdə tutulur.

Regionların sosial iqtisadi inkişafı Dövlət proqramlarına uyğun olaraq son illərdə yol infrastrukturunun inkişafı istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələr uğurla icra edilir.

Ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayan yol infrastrukturunun önəmini nəzərə alan Prezident İlham Əliyev bu sahəni daim diqqət mərkəzində saxlayır. Son illər respublikamızın bütün şəhər, rayon və kəndlərində yol tikintisinə böyük investisiyalar qoyulub. Həm işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında, həm də ölkənin digər bölgələrində ən müasir yollar salınır. 2022-ci ildə və bu ilin ilk 3 ayında Dövlət Proqramına uyğun olaraq bütün yol-nəqliyyat infrastrukturları uğurla icra olunub. Son iki ildə Prezidentin iştirakı ilə bir çox rayon və şəhərlərdə yeni yollar istifadəyə verilib.



Bundan başqa, ölkəmizin 96, 6 faizi tamamilə qazlaşdırılıb. Hətta bu gün ən ucqar dağ kəndlərində mavi qazdan istifadə edilir. Eyni zamanda, rayon mərkəzlərinin, kənd və qəsəbələrin su və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində geniş işlər görülür. İndi rayon mərkəzlərində aparılan abadlıq-quruculuq işləri onların simasını tamamilə dəyişib. Böyük parklar, mədəniyyət evləri, Olimpiya İdman kompleksləri, Gənclər mərkəzləri, bir-birindən zəngin ticarət mərkəzləri imkan verir ki, insanlar özlərini rahat və əmin-amanlıqda hiss etsinlər.

Digər ən önəmli fakt isə rayonlarda istifadəyə verilən regional «ASAN xidmət» mərkəzləridir. 100 –dən artıq xidmət sahəsini əhatə edən bu mərkəzlərdə vətəndaşlar bürokratiyadan və süründürməçilikdən uzaq, şəffaf və rahat şəkildə öz problemlərini həll edə bilirlər.

***Elçin Zaman***

# Ağdamda gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər





2023-cü il aprelin 12-də YAP Ağdam rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

# Paşinyan kilsəyə qarşı: Ermənistanda daha bir münaqişə





Ermənistandakı ictimai-siyasi vəziyyətin kritik həddə çatması ölkədə bir neçə istiqamətdə müzakirə obyektinə çevrilməkdədir. Bir tərəfdən ölkə hakimiyyətinin Qərbə tərəf meyillənməsini həzm etməyən rusiyapərəstlər, o biri tərəfdən anti-Rusiya tərəfdarlarının rusiyapərətstlərlə qarşıdurmalara getmələri, digər tərəfdən İranla oynanılan oyunbazlıqlar və paralel olaraq bununla uzlaşmayan Avropa missiyasının fəaliyyəti, Rusiyanın regionda qalması maraqlarını təmin etmək üçün təzyiqləri və s. qeyd edilən qarmaqarışıqları gözlər önünə sərməkdədir.

Ancaq diqqətlərdən yayınan daha bir tərəf də var – hakimiyyətin əsas konkurenti olan kilsə faktoru. Bəri başdan xatırladaq ki, Paşinyan əvvəldən kilsə ilə isti münasibətdə olmayıb və onun hakimiyyətə yiyələnməsindən sonrakı müddətdə ölkədə kilsənin maraqlarını əks etdirməyən bir sıra siyasətlərini həyata keçirməsi də buna sübutdur. Düzdür, müxalifətdə olarkən o dini ibadətgahları ziyarət edirdi, amma bu da siyasi maraqlardan yaranırdı. Ancaq indi elə deyil.

### Paşinyan-Qaregin qarşıdurması dərinləşir

Misal üçün, cinsi azlıqlara verilən azadlıqlar, erməni parlamentində cinsi azlıqların çıxışları və s. Bütün bunlar öz yerində. Lakin erməni KİV-ləri də yazmağa başlayıblar ki, Paşinyan artıq neçənci ildir ki, kilsə ziyarətinə getmir. Xüsusilə, dini bayramlarda kilsəyə getməyən Paşinyanın katolikos Qareginlə yola getmədiyi bildirilir. Və eyni zamanda, yazılır ki, Paşinyan ümumiyyətlə, özü ilə birlikdə ailəsinin də kilsə ziyarəti etməsinə qadağa qoyub, hansı ki, hakimiyyətə gələnə qədər kilsələri tez-tez ziyarət edirdi.

Məsələ ilə bağlı Paşinyanın tərəfdarları iddia edirlər ki, o əlində dövlətin dindən ayrı olduğunu əsas gətirir və buna görə də kilsə ziyarətlərinə getmir və s. Ancaq müzakirələrə qoşulanlar və bu iddiada olanlar unudurlar ki, erməni kilsəsi yalnız külli miqdarda maliyyə imkanlarına malik deyil, həm də əhaliyə ayrıca və güclü təsiri də mövcuddur. Üstəlik, erməni kilsəsi rusiyapərəstlik mövqeyi ilə də seçilməkdədir. Məhz bu baxımdan da Paşinyanın katolikosla baxışları bir-birindən tamamilə fərqlənir.

**Ermənistan əhalisinin böyük kəsimi kilsələrə axın edirlər, bu zaman ictimai rəyə də hansı tərəfin diktə etməsini asanlıqla müəyyən etmək olar**

Digər müzakirələrə qoşulanlar isə bildirirlər ki, Paşinyan iqtidara yiyələnənə qədər, yəni müxalifətdə olduğu dövrlərdə az qala hər gün kilsə qapılarında yatırdı, özü də ailəsi ilə birlikdə. Həmin vaxtlarda isə ona elektorat lazım idi. Özü də təsir qüvvəsi olan, habelə sözəbaxan. İndi isə hər şey fərqli məcrada inkişaf edir. Bir vaxtlarda kilsələrdə şam yandırmaq üçün şam dalınca qaçan Paşinyan hazırda kilsənin təsir qüvvəsini azaltmaqdan ötrü əlində olan bütün imkanlarını işə salmağa başlayıb. Nəzərə alsaq ki, Ermənistan əhalisinin böyük kəsimi kilsələrə axın edirlər, bu zaman ictimai rəyə də hansı tərəfin diktə etməsini asanlıqla müəyyən etmək olar. Bu amil isə Nikol Paşinyanı ciddi narahat edir və hökumət-kilsə münaqişəsi getgedə daha da qızışır.

***Rövşən RƏSULOV***

# "Günahkar İran dövlətidir"



***"Hazırkı durumda İranla Azərbaycan arasında olan münasibətlər çox gərgin xarakter daşıyır və bunun əsas günahkarı İran dövlətidir. Azərbaycan ikinci Qarabağ müharibəsində öz beynəlxalq səviyyədə tanınmış torpaqlarını işğaldan azad etdikdən sonra İran ölkəmizə qarşı düşmənçilik münasibəti sərgiləməyə başladı". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq İlyas Hüseynov deyib.***

Onun sözlərinə görə, sərhədlərimizdə hərbi təlimlərin keçirilməsi, Azərbaycan sərhədlərinə yaxın İran qırıcılarının uçuş icra etməsi, Naxçıvan ərazisindən yaxın hərbi təlimlərin icrası və eyni zamanda, Tehrandakı Azərbaycan səfirliyinə qarşı terror hücumu, millət vəkili Fazil Mustafaya qarşı olan terror hücumunda İran izlərinin olması və digər çoxsaylı faktları sadalaya bilərik: " Eyni zamanda, İran və Ermənistan arasında çox yaxın əlaqələr nəzərə çarpır. Tehranla İrəvan şəhərinin qardaşlaşması, Qafanda İranın konsulluq açması, Təbrizdə Ermənistanın konsulluq açmaq niyyətləri və digər bu cür fəaliyyətlər Azərbaycan tərəfindən də haqlı olaraq narahatlığa səbəb olur. Azərbaycanın İsraildən səfirlikll açması da xarici siyasət strategiyamızın bir tərkib hissəsidir və heç vəclə üçüncü dövlətlə İrana qarşı yönəlməyib. Bu barədə dəfələrlə bəyanatlar səsləndirilib və Azərbaycanın son atdığı addım Azərbaycanda fəaliyyət göstərən İran səfirliyinin əməkdaşlarılarının, diplomatlarının "persona-non-qrata" elan olunması və onların 48 saat ərzində ölkəni tərk etmələri haqlı bir yanaşmadır. Bir müddət öncə Azərbaycanda olan İran səfirliyinə aid olan maşınlar vasitəsi ilə qeyri qanuni hərəkətlərin etməsi və bu haqda da məlumatların yayılması izlənildi və bu da onu deməyə əsas verir ki, Azərbaycanda olan İran səfirliyinin əməkdaşları pozuculuq fəaliyyəti ilə məşğul olurmuş və Azərbaycanın güclü xüsusi xidmət orqanları bu pozuculuq, destruktiv fəaliyyətin qarşısını qətiyyətlə almışlar. Azərbaycanın təhlükəsizliyinə, müstəqilliyinə və suverenliyinə qarşı istənilən məkirli addım atılacaqsa bunun qarşısı dərhal ciddi surətdə alınacaqdır və Azərbaycanın güclü dövlət olduğunu və Vətən müharibəsində qalib gəlmiş dövlət olduğunu hər bir müstəvidə göstərir və göstərəcək".

***GÜLYANƏ***



# İnsanın fəzanı fəth etməsindən 62 il ötdü

12 aprel Ümumdünya Aviasiya və Kosmonavtika Günüdür, bu tarix SSRİ Ali Sovetinin 9 aprel 1962-ci il tarixli qərarı ilə təyin olunub. Bu günün keçirilməsinə səbəb isə 1961-ci ilin 12 aprelində Yuri Qaqarinin bəşər tarixində ilk dəfə kosmosa uçması olub. Kosmonavtın uçuşu 108 dəqiqə davam edib. Yuri Qaqarin bununla kosmosun fəthi erasının əsasını qoyub.

Kosmik məkanı fəth edən ilk insan Yuri Qaqarindən sonra səmaya bu günəcən 32 ölkədən yüzlərlə kosmonavt uçub. Kosmosda hamıdan çox qalan da yenə rusiyalı kosmonavt Sergey Avdeyev olub. O açıq fəzada 747 sutka 17 saat keçirib. Kosmosa uçanlar arasında təkcə kişilər deyil, qadınlar da çox olub. Bu işdə də Rusiya birincidir. Dünyada ilk qadın kosmonavt da məhz rusiyalı Valentina Tereşkovadır.

Sovet kosmonavtikasının baniləri arasında kosmonavtikanın inkişafında misilsiz xidmət göstərmiş azərbaycanlı general-leytenant Kərim Kərimovun da adı var. O, daha çox "R-2" raketlərinin istehsalında müstəsna rol oynayıb. 1957-ci il oktyabrın 4-də belə raketlərdən birinin köməkliyi ilə dünyada ilk dəfə olaraq yerin süni peyki kosmik fəzaya çıxarılıb və bununla da planetimizdə kosmos dövrü başlanıb.

Hazırda təxminən 50 ölkədə kosmosa ilk uçuşun ildönümü tarixi qeyd olunur. Kosmonavtika tarixində ilk beynəlxalq uçuş isə 15 iyul 1975-ci ildə gerçəkləşdi. Uçuşun qabaqcılları Sovet gəmisi "Soyuz-19" və Amerika gəmisi "Apollon" idi.

12 aprel Kosmonavtika Günü Sabail rayonu, Etibar Əliyev adına 162 saylı məktəbdə təntənəli şəkildə qeyd edilib. Təşkilatçılar arasında məktəbin Fizika və Alqoritm müəllimi Rəna Səfərovanın da olduğu tədbir məktəblilərin, müəllim heyətinin və valideynlərin marağına səbəb olub. Tədbirdə ön söz ilə çıxış edən Rəna Səfərova 12 aprel tarixi barədə iştirakçılara məlumat verib. O çıxışına prezident İlham Əliyevin sözləri ilə başladı: "Gənclər birinci növbədə təhsilli olmalıdır, bilikli, istedadlı, müasir, vətənpərvər olmalıdır, öz ölkəsini sevməli, xalqına bağlı olmalıdır. Bu faktorlar inkişafı stimullaşdırır. İndiki gənclərin daha çox



fürsəti və imkanı var, onlar bu imkanlardan istifadə etməlidirlər. Biz azad və müstəqil yaşayırıq, biz fəxr edirik ki? Azərbaycanın vətəndaşıyıq. Azərbaycanın gəncləri də aktiv olmalıdır".

Müəllim tədbirin təşkilatçılığında əməyi olan digər müəllimlər, rus dili və ədəbiyyatı müəllimi Valentina Mirzoyevaya, STEAM müəllimi Sevinc Əliyevaya, məktəbin direktoru Arzu Nəzərovaya təşəkkür etdi. Daha sonra çıxış edən direktor Arzu Nəzərova Kosmonavtika Gününün tarixindən, əhəmiyyətindən danışdı, şagirdlərin bu tədbirə hazırlıq prosesi və tədbir barədə məlumat verdi.

Daha sonra şagirdlər hazırladıqları bədii kompozisiyanı təqdim etdilər, kosmos haqqında yazılmış və bəstələnmiş mahnıların qurulușunda rəqs etdilər, kosmik fəza haqqında səhnəciklər göstərdilər, kosmos haqqında şeirlər səsləndirdilər, planetlərin xüsusiyyətləri haqqında danışdılar, kosmonavtlarla bağlı musiqili foto-slayd təqdim etdilər, kosmik fəzanın ilk kosmonavtları barədə müfəssəl məlumat verdilər. Məktəbin 9-cu sinif şagirdləri Rəvan Məhərrəmli, Altay Bayramlı, Samir Mehdiyev və Əvəz Səfərlinin birlikdə yaratdığı robot-texnikanın nümayişi oldu.

***Lalə Mehralı***

# Ramazan: Ruhu, nəfsi və bədəni tərbiyə edən ay

***Nəfsi tərbiyə etmək müqəddəs kitab Quranda Allahın dönə-dönə işarə etdiyi xüsusiyyətdir. İnsanı pis əməllərdən təmizləmək, axirətə münasib ruhda tərbiyə etmək, əslində, bütün dinlərdə vacib əməl kimi göstərilir. İnsan dünyaya gələndə ailəsini, ana-atasını, öz qaşını-gözünü, yerini -irqini, cinsini-rəngini seçə bilməz. Amma yaradan insana heç bir canlıya vermədiyi bir üstünlük verib - mənəviyyatını dəyişmək səlahiyyəti. Ramazan ayının vacib əməllərindən olan oruc ruhun bu saflaşmasını təmin edən ən mühüm ünsürlərdən biridir.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*



### Ac insan – kamil insan

İnsan yalnız ac olduqda başqalarının nə yaşadığını düşünə bilir. Nəfs də ac qalmadıqca yaradanın qüdrət və səltənətini fərq etmir. İnsanın təbiəti belədir. Oruc tutmaq insan ruhunu bir növ təlimə məruz qoymaqdır. Necə ki, hərbi xidmətdə təlim keçən hərbçilər fiziki güclərini imtahana çəkən hərbi təlimdən sonra onlara verilmiş fasiləni nemət bilirlər, eləcə də ruh və fiziki bədən də təlimdən, yəni orucdan sonra mövcud nemətlərdən faydalandıqda tərbiyə olunurlar.

Əslində, oruc bizə acizliyimizi xatırladır. Yemək yeməsək, su içməsək bir qüdrətimizin olmadığını anlayırıq. Oruc tutduqda fiziki gücümüz azala bilər, amma mənəvi gücümüzə güc qatılır. Əksəriyyət Ramazandan sonra dəyişdiyini, qəribələşdiyini düşünür. Bu, orucun tərbiyə etdiyi ruhla bağlıdır. Nəfsin təmizlənməsində orucun xidmətlərini danmaq olmaz.

Oruc bədən tərbiyəsinin ən yaxşı formalarından biridir, özünü təmizləmənin ən sadə forması hesab olunur və şəhvət, ehtiras, həzz kimi hislərdən arınmağı öyrədir. Daha üst səviyyəli tərbiyə üsulları isə gözün, qulağın, ağzın və qəlbin oruc tutması məsələsidir. Ac qalıb qeybət edirsənsə, gözün şəhvətinə alət olursa, qulağın maddi dünyanın asılısıdırsa, qəlbin pis əməllərdən arınmırsa orucu tutmağın mənası da yoxdur.

Oruc ruhun öz sahibini xatırlaması üçün bir tərbiyə növüdür. Biz orucun yalnız xeyirxahlıq tərəfini görürük. Oruc tutmaq bizə başqa insanlarla aramızda olan bağlılığımızı göstərir. Qəddar və təkəbbürlü insanlar başqalarına diqqət yetirməyən insanlardır. Oruc, özünüzü başqasının yerinə qoyaraq, digərini anlama vəziyyətini təmin edir. Yəni oruc əslində empatiyadır. Ac qalmaqla həm öz fiziki və ruhi bədənini tərbiyə etmiş olursan, həm də özünü başqalarının yerinə qoyaraq haldan anlayırsan.

Ruhi bədənin təmizlənməsi dedikdə əksəriyyət düşünür, "axı ruh necə murdar ola bilər ki, təmizlənməyə ehtiyac duysun?". Ruh, əslində, murdar deyil. Amma nə qədər təmiz olsa da, təmizlənməyə yenə də ehtiyac duyur. Bir ev düşünün, tərtəmiz, gül kimi. Amma pəncərəsində pərdələr var və ora günəş işığı düşmür. Siz pərdələri açmayınca o tərtəmiz eviniz işıqlanmır, nurlanmır. Ruh da eynən belədir. Təkəbbür, ikiüzlülük, yalan, kin, şəhvət və həzz asılılığı ruhun üzərinə örtülmüş pərdələrdir və bu pərdəni ruhumuza bizim maddi dünya asılılığımız örtür. Onu orucla tərbiyə etdikdə üzərindəki pərdə qalxır, altındakı cövhər parıldayır. Siz özünüz də ruhunuzun təmizliyindən heyrətə gəlirsiniz, "bu mənəmmi?" deyə sual edirsiniz.

### Orqanizmin yenidən doğulması desək, yeridir

Təbii ki, Ramazan orucunun mənəviyyat baxımından faydaları çoxdur. Səbrin öyrənildiyi bu ayda insanlar bir daha tolerantlığı, empatiyanı və anlayışı öyrənirlər. Empatiya kimi vacib bir duyğu ictimai həyatda öz dəyərini bir daha sübut edir. İmkanı olanın olmayana kömək etdiyi və vəziyyətini anladığı bu dövr həqiqətən insani hisslərimizin yenidən üzə çıxmasına kömək edir.

Mənəviyyatımız qədər maddi bədənimiz də dəyişilir oriclu olduqda. 1 ay oruc tutan insanın orqanizmində nələr baş verdiyini bilirsinizmi? Ac qalmaq yağların yanmasını sürətləndirir, mədə və bağırsaqlar dincəlir, zehni funksiyalar güclənir, bədən ağır şərtlərə alışır, dəri canlanır və işıqlanır, insulin müqavimətinə müsbət təsir göstərir, immunitet sistemini gücləndirir, ürək sağlamlığını qoruyur, hüceyrələri təmir edir, yaşlanmanın təsirlərini gecikdirir.

### Oruc tutmaq möcüzə yaradır

İstidə oruc tutmaq qış aylarına nisbətən çətin olur. Aclığa dözmək nisbətən rahatdır, lakin isti aylarda susuz qalmaq orqanizmə çətinlik yaradır. Bu il Ramazan ayı sərin aylara təsadüf etdiyindən oruc tutmaq da nisbətən rahat oldu. Alimlər isə həm ac, həm susuz qalmağı "aclıqla müalicə" kimi dəyərləndirərək orqanizmə faydalarından bəhs edirlər.

Aclıqla müalicə orqanizmdə yığılan tullantıların xəstəliklərə səbəb olması və bu tullantıların



təbii yolla atılması üçün müalicə üsuludur. Xəstəliklərin sağalması, yeni yarana biləcək xəstəliklərin qarşısının alınması üçün düzgün oruc tutmaq bədəndən zərərli maddələrin çıxarılması deməkdir.

Əslində, bütün xəstəliklərin əsas mənbəyi tullantı maddələrin (iltihab, selik, toksinlər və s.) orqanizmdə toplanmasıdır. Bunun ən mühüm səbəbi yanlış və həddindən artıq qidalanmadır. Dövrümüzün qidası getdikcə daha çox süniləşir. Heç bir qida dəyəri olmayan, lakin orqanizm üçün zərərli maddələr olan bu qidalar orqanizmin tarazlığını pozur. Bu gün insanlar həm qeyri-təbii qidalar yeyirlər, həm də ehtiyaclarından on-on beş dəfə çox istehlak edirlər. Nəticədə bədəndə çirklənmə baş verir.

Sağlam və normal qidalandığını zənn edən adamın üç-dörd gün oruc tutduqdan sonra ağız qoxusu yaranır. Bu, onun bədəninin tullantılarla dolu olduğunu göstərir. Bədən bir gün bu tullantıları xaric etmək istədikdə xəstəliklər yaranır. Xəstəliklər əslində sağalmanın yolunu göstərən siqnallardır. Ağrı və narahatlıq kimi əlamətləri diqqətlə izləmək və bədənin dilini anlamağa çalışmaq lazımdır. Bu gün insanlar aclıqla yox, dərmanlarla müalicəyə çalışırlar. İnsan ac qalmaqla özünü təmizləmək əvəzinə dərmanlarla, müxtəlif müalicə üsulları ilə özünü sağaltmağa çalışır, əslində isə orqanizmini daha da çirkləndirir.

### Oruc imtahandır, aclıq sağlamlıq

Oruc tutmanın ilk 3 günü çətin keçir, bu, aclıqla müalicənin də ən ağır günləridir. Əgər oruc tutmaq həm də aclıqla müalicə üçün edilirsə, yaxşı olar ki, ilk 3 gün həkimlə məsləhət edilsin. Aclıqla müalicəyə başlayan insanlar bu günlərdə tez-tez panikaya düşürlər, müalicəni dayandırır və yenidən aclıq müalicəsi etmək qərarına gəlirlər. Çünki bu günlərdə yeməklə bağlı hər cür söz, görüntü, qoxu və s. adamı narahat edir.

Ac qaldığı üçün əhval dəyişikliyi, əsəbilik, yuxusuzluq baş verir, tez çəki itirilir. İnsan aclıq hissini yatırıb yemək yeməyi dayandırdıqda, könüllü aclığa dözdüyü, aclıq və dad hisslərini nəzarət altına aldığı üçün maddi və ruhi istəklərini nizamlaya bilir. Yəni aclıqla müalicə insanı ruhən sağlamlaşdıran bir üsuldur. Əgər insanın siqaret və içki kimi asılılıqları varsa, aclıq müalicəsinin ilk günləri onun üçün işgəncə kimi olacaq. Ancaq oruc tutmaq, habelə aclıqla müalicə, xüsusən də pis vərdişləri olan və ondan əl çəkə bilməyən insanlar üçün inanılmaz bir fürsətdir. Ac olanda hiss etdiyimiz ağrılar, içimizdəki tullantı maddələrin xəbərçisidir. Bu tullantılar təmizləndikcə orqanlar həyat enerjisi ilə dolmağa başlayacaq və daha gümrah olacaq.

Aclıqla müalicənin ikinci mərhələsi 3-cü və 4-cü günlərdən başlayır və 6-cı və 10-cu günlərə qədər davam edir. Bu mərhələdə insanın ağzından aseton qoxusu gəlir, bu toksinlərin bədəndən xaric olması deməkdir. 3-cü gündən sonra aclıq hissi azalır, hətta yox olur, lakin su içmək istəyi artır. Orqanizmin müdafiə sistemi orqanlardakı tullantıları çıxarmağa başlayır və bu maddələr qana qarışır. Qan ağciyərlərdən keçərkən, həmin tullantı maddələr aseton



qoxusu yayır. Bu arada ürək döyüntüsündə artım olur. Çünki ürək zəhərlənmiş qanı tez vuraraq ondan xilas olmaq istəyir. Su içmək istəyinin artması normaldır. Su dərhal qanla qarışacaq, tullantıları özünə çəkəcək və onların böyrəklər vasitəsilə xaric olmasını təmin edəcək.

Ramazanda tutulan oruc qismən orucdur, aclıqla müalicə zamanı tutulan oruc tam. Tam orucdan, yəni aclıqla müalicədən sonra həssas qidalanma prosesinə başlanmalıdır. Necə gün ac qalmaq, qidalanmaya necə keçmək və bu prosesdə nə yemək lazım olduğunu mütəxəssis müəyyən etməlidir.

***Lalə Mehralı***

# Ronaldo baş məşqçini işdən qovdurur

*Futbol üzrə Portuqaliya millisinin futbolçusu Kriştiano Ronaldonun çıxış etdiyi “Əl-Nəsr”baş məşqçisi Rudi Qarsiyanı istefaya göndərilə bilər. Qol.az Səudiyyə Ərəbistanı mətbuatına istinadən xəbər verir ki, klub rəhbərliyi fransalı mütəxəssisin gələcəyi ilə bağlı yaxın vaxtlarda qərar verəcək. Hücumçu Kriştiano Ronaldo məşqçinin işindən və komandanın oyun tərzindən narazıdır. 38 yaşlı oyunçu hesab edir ki, "Əl-Nəsr" daha yüksək səviyyədə çıxış etməyə və titul qazanmağa qadirdir.*





Rudi Qarsiya 2022-ci il iyunun sonunda kluba baş məşqçi təyin edilib. Komanda onun rəhbərliyi altında Səudiyyə Ərəbistanı çempionatının 23 turunda 53 xal toplayıb və lider “Əl-İttihad”dan 3 xal geri qalır.

Xatırladaq ki, Ronaldonun 2022-ci ilin dekabrında Səudiyyə Ərəbistanı klubu ilə imzaladığı müqavilədə baş məşqçi dəyişikliyi etmək hüququ ilə bağlı bənd olduğu iddia edilirdi.

# Evləndikdən sonra ikili soyad necə almaq olar?



VƏKİL AÇIQLADI

*“Ailə Məcəlləsinin 28.7-ci maddəsinə əsasən, nikah etibarsız hesab edildikdə, ər (arvad) nikah qeydə alınan zaman keçdiyi soyadı saxlaya bilər”. Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.*

Onun sözlərinə görə, həmin Məcəllənin 30-cu maddəsinə əsasən, ər-arvad öz arzuları ilə onlardan birinin soyadını özləri üçün ümumi soyad seçə, yaxud onlardan hər biri nikahdan əvvəlki soyadını saxlaya və ya öz ərinin (arvadının) soyadını öz soyadı ilə birləşdirə bilər: “Lakin nikaha daxil olanların biri və ya hər ikisi qoşa soyada malik olduqda soyadların birləşdirilməsinə yol verilmir. Ər-arvaddan birinin soyadını dəyişdirməsi digərinin soyadının dəyişdirməsinə səbəb olmur. Nikah pozulduqda ər (arvad) ümumi soyadlarını saxlamaq və ya nikahdan əvvəlki soyadını bərpa etmək hüququna malikdir.

Məhkəmə qaydasında nikah pozulduqdan sonra soyadını dəyişib keçmiş soyadına qayıtmaq istəyən qadın nikahın pozulması haqqında məhkəmə qətnaməsi qanuni qüvvəyə mindikdən sonra nikahın qeydə alındığı yerin qeydiyyat şöbəsinə yaxınlaşmalı və nikahın pozulması haqqında şəhadətnamə almalıdır. Qeydiyyat şöbəsində şəxs keçmək istədiyi soyadı bildirməlidir. Daha sonra nikahın pozulması haqqında şəhadətnamə ilə “ASAN xidmət” mərkəzlərinə yaxınlaşaraq yeni şəxsiyyət vəsiqəsi almalıdır”.

*Ayşən Vəli*

# Vətəndaş xaricdən dərman gətirəndə niyə problem yaradılır?

*“Dünən Milli Məclisin plenar iclasında məsələ qaldırıldı ki, vətəndaşlar özləri və yaxınları üçün xaricdən dərman gətirmək istədikdə gömrükdə problem yaşayırlar. Yəqin ki, bu məsələni qaldırmış həmkarlarımızın əllərində konkret faktlar var.*



Lakin, mən bu müddətdə həm araşdırma apardım, həm də müəyyən insanlarla ünsiyyət nəticəsində şəxsi istifadə üçün xaricdən gətirilən dərman preparatlarına elə bir ciddi problem yaradılmadığı qənaətinə gəldim. Amma müəyyən norma var ki, onu aşdıqda problemlər olur”. Bu sözləri Milli Məclisin Səhiyyə komitəsinin deputatı Müşfiq Məmmədli deyib.

Müşfiq Məmmədli sözlərinə belə davam edib: “Təbii ki, insanların şəxsi istifadəsi üçün özlərinin və birinci dərəcəli yaxınlarının sağlamlığı baxımından elə önəmli dərman preparatları var ki, həqiqətən də onların xarici ölkələrdən gətirilməsi şərtdir. Məncə, bu istiqamətdə məhdudiyyətlər olmamalıdır. Təbii ki, bu dərmanlar kommersiya və digər məqsədlər üçün gətirilirsə, burada müəyyən addımların atılması təbiidir. Çünki dərman insan sağlamlığı üçün bəzən vacib, bəzən də təhlükə yaradan vasitədir. Ona görə də dövlətin bu sahədə nəzarəti insanların şəxsi istifadəsi, şəxsi rahatlığı üçün problem yaratmır və yaratmamalıdır. Bu istiqamətdə müvafiq orqanlar müəyyən addımlar atıb. Mən düşünmürəm ki, bu sahədə ciddi problemlər olacaq.

Mənim şəxsi mövqeyim odur ki, vətəndaş öz şəxsi istifadəsi üçün dərman preparatları gətirərkən problemlə qarşılaşmamalıdır”.

*Ayşən Vəli*

# Balıq bu fəsildə yeyilməlidir

***“Belə bir el sözü var ki, “r” hərfi olmayan aylarda balıq məhsullarının yeyilməsi qadağandır. Bu düzgün yanaşma deyil”. Bu sözləri SİA-ya açıqlamasında qida üzrə baş mütəxəssis Ağa Salamov deyib.***



MÜTƏXƏSSİS AÇIQLADI

Onun sözlərinə görə, tərkibində histamin maddəsi çoxalan, yəni xarab olan balıqlar yayqış fərq etmədən yeyilməz: “Bu balıqlar yeyilərsə, qida zəhərlənməsi baş verə bilər.

Yaz-yay aylarında çəki balığı kimi bəzi balıqlar kürü qoyur ki, bu balıqların ovlanması düzgün deyil. Çünki onlar ovlanarsa, nəsilləri kəsilər. Bizim marağımız balıqların nəslinin artması və gələcək nəsillərə çatmasından yanadır”.

Ağa Salamov sözlərinə belə davam edib: “Balığın pulu tökülürsə, dərisi görsənirsə, qarnı şişibsə, qəlsəmələri qırmızı deyil və qoxu gəlirsə o köhnədir. Balığın pullarını dartanda pullar qopmalı deyil. Əgər tökülürsə, bu deməli köhnədir. Yaxud köhnə olmasa belə, bir dəfə dondurulub buzu açılmış balıqdır. Bəzən deyirlər ki, balıqla qatığı birlikdə yemək olmaz. Əgər təzə balıqdırsa, yanında qatıq da yeyə bilərsiniz. Köhnə olduqda isə əksinə qida zəhərlənməsi baş verə bilər. Əsas odur ki, balıq köhnə olmasın.

Orucluqda da balıq yemək məqsədəuyğundur. Çünki yüngül zülal olduğu üçün tez həzm olunur. Amma hərgün olmaz. Həftədə 1-2 dəfə qida rasionumuza balıq əlavə edə bilərlər. Çünki balıq yüngül zülaldır”.

*Ayşən Vəli*

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000